YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 sentyabr 2023-cü il Cümə № 154 (8290) Qiyməti 60 qəpik

Xəbər

Xalq pulunu bankdan çıxarıb evdə saxlamağa başlayıb: səbəblər

yazısı səh.12-də

XANKƏNDİDƏ "KRESLO QIRĞINI" BAŞLADI

İşğalçı rejimin "konstitusiyasına" görə, "prezident" səlahiyyətləri "parlament sədri" David İşxanyana keçməlidir; amma digər "namizədlər" də var



yazısı səh.6-da

"Çörəyi dizi üstə" olanlar... - Ağdam yolunda üçüncü gün

Yüklər qəbul edilənə qədər Qızıl Aypara yolda durmağa davam edəcək, **PA rəsmisi:** "Azərbaycan artıq öz torpağında "boz" nəzarətsiz zonaya dözüm göstərə bilməz"

yazısı səh.9-da

Gündəm

Səfirliklərimiz təhdid altında



Dövlət diplomatlarını öz gücünə qorumaq məcburiyyəti ilə üzləşib

yazısı səh.7-də

Kanada sərhədimizə atlı dəstə göndərir
yazısı səh.7-də

Azərbaycanın notası: "Nous exigeons de la France que..."
yazısı səh.3-də

Ermənilər üç yol ayrıcında: işıqlı dünya, qaranlıq yol, Simurq quşu...
yazısı səh.4-də

Kabel TV-lərdən evimizə soxulan erməni təbliğatı
yazısı səh.3-də

Prezidentin yeni təyin etdiyi icra başçısı və rektor kimdir?
yazısı səh.2-də

Ali məktəblərə qəbul planı doldu - bu universitetlərdə boş yer qalmadı
yazısı səh.10-da

Bezdirici Bakı tıxacları "istirahətdən qayıdır"
yazısı səh.13-də

Ərəb turistlərin sayının azalmasının ilginc səbəbləri
yazısı səh.15-də


Qırğızıstanda "TikTok"a qadağa, bəs Azərbaycan?
yazısı səh.15-də

Babayanın Bakıya göndərdiyi paketin içərisində nələr var?
yazısı səh.4-də



Zaxarovadan "Qarabağı tanıdınız..." sitəmi və mesajının pərdəarxası...

yazısı səh.5-də



"Tramp Bakıya qaça bilər..." - ABŞ mediasından sensasion iddia

yazısı səh.6-da



"Rus ruletkası"- Bordovun "son gülləsi" özünə qaldı...

yazısı səh.8-də

Prezidentin yeni təyin etdiyi icra başçısı və rektor kimdir?



İlham Əliyev "Total Energies" in icraçı direktorunu qəbul edib

Prezident İlham Əliyev avqustun 31-də "Total Energies" şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul edib.

Görüşdə "Abşeron" yatağında hasilatın başlanılması vurğulanıb və layihənin parametrləri barədə dövlətimizin başçısına ətraflı məlumat verilib.

Qeyd edilib ki, hasilat quyusu ən məhsuldar və ən aşağı karbon tullantılarına malik quyudur. Bu da yatağın potensialının zənginliyinin və perspektivinin aydın göstəricisidir.

Söhbət zamanı "Total Energies" şirkətinin Azərbaycanda fəaliyyətinin genişləndirilməsi, o cümlədən "Abşeron" yatağının tam işlənmə mərhələsinə keçməsi barədə fikir mübadiləsi aparılıb, şirkət tərəfindən layihələrdə iştirakla bağlı maraq ifadə olunub.



Kino İttifaqının qurultayı nə vaxt keçiriləcək?

Bu il iyulun 26-da daim rəqabət halında olan Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) və Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı (ARKİ) birləşdi.

Bununla bağlı ittifaqların idarə heyətinin iştirakı ilə iclas keçirildi, hər iki tərəf birləşməyə razılığını bəyan etdi. Bir çox mədəniyyət xadimləri də , "bir kinomuz var, iki başı olmaz" deyərək, bu addımı alqışlarla qarşıladı. Bəs birləşən ittifaqa kim rəhbərlik edir?

Lent.az bu sualla keçmiş Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) sədri Xalq artisti Rasim Balayevə müraciət edib.

Xalq artisti bildirdi ki, hələlik ittifaqın rəhbəri yoxdur, kimin bu işin başında dayanması, rəhbərlik etməsi də bilinmir. "Bəs siz işə getmirsinizmi?" sualına Rasim Balayev "məzuniyyətdəyəm" cavabını verdi.

"Yaxın bir-iki aya qurultay keçiriləcək. O zaman kimin rəhbərlik edəcəyi məlum olacaq. Hər iki ittifaqın üzvləri arasında razılıq əldə edilib, birləşmişik. Əsas budur",- deyə o qeyd etdi.

Haqqında qalmaqallı fikirlər səslənmiş (əməkdaşları onun saxta qurultay keçirib, zorla özünü sədr elan etməsindən şikayətçi idilər) keçmiş Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının (ARKİ) sədri Şəfiqə Məmmədova ilə əlaqə saxlamaq cəhdimiz boşa çıxdı.

Mədəniyyət Nazirliyindən Lent.az-ın sorğusuna belə cavab veriblər: "Kino ittifaqlarının ikisi də özəl, yaradıcı təşkilatlardır, onlar dövlət təşkilatı olmadığına görə, ora kimin rəhbər seçilməsi və ya təyin edilməsi Mədəniyyət Nazirliyinin səlahiyyətində deyil. Qərarı özləri verəcəklər".

Artıq bir ay keçməsinə baxmayaraq qərar hələlik verilməyib.

Birləşmiş təşkilata kimi seçmək qurultayın işidir. Bəs Rasim Balayev yenidən seçilmək istəyərmi? Bu suala cavab verən qocaman aktyor bunu zamanın göstərəcəyini söylədi.

Türkiyənin Azərbaycanda yeni hərbi attaşesi kim olacaq?

Türkiyənin Azərbaycandakı hərbi attaşesi general-mayor Zekeriya Yalçın təqaüdə göndərilib.

"Qafqazinfo" xəbər verir ki, Türkiyə Silahlı Qüvvələrinin komandanlıq səviyyəsinin formalaşdırıldığı Ali Hərbi Şuranın iclası keçirilib.

İclasda general-mayor Zekeriya Yalçın da daxil olmaqla, bir neçə generalın təqaüdə göndərilməsi ilə bağlı qərarlar qəbul edilib.

Z.Yalçın fəaliyyətini başa çatdırması ilə bağlı qardaş ölkəyə qayıdıb.

Məlumata görə, ölkəmizə təyin ediləcək yeni hərbi attaşenin adı da məlumdur. Təyinatın yaxın vaxtlarda açıqlanacağı gözlənilir.





Prezident İlham Əliyev İlqar Akif oğlu Mahmudovun Quba Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi barədə sərəncam imzalayıb.

İlqar Mahmudov bu təyinatadək Elm və Təhsil Nazirliyinin Daxili Nəzarət Şöbəsinin müdiri işləyib. Daha əvvəl Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdindəki Bakı Humanitar Kollecin direktoru vəzifəsində çalışıb.

Qeyd edək ki, iyul ayında Prezident Ziyəddin Əliyevi Quba Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edib.

Prezident İlham Əliyevin sərəncamı ilə Zəfər Qurbanov Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru təyin edilib.

Qeyd edək ki, ötən ilin sentyabrın 6-da Prezident İlham Əliyevin sərəncamı ilə İbrahim Həsən oğlu Cəfərov Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru vəzifəsindən azad edilmişdi. İndiyədək bu vəzifəyə heç bir təyinat olmamışdı. Rektorun vəzifələrini Zəfər Qurbanov icra edirdi.

Zəfər Qurbanov 1979-cu ildə anadan olub. 2016-cı ildə Bakı Ali Neft Məktəbinin Mühəndislik fakültəsinin dekanı təyin olunub. Daha əvvəl isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində işləyib.

Rektor səlahiyyətlərini icra etməzdən əvvəl Zəfər Qurbanov Azərbaycan Dövlət Aqrar Universitetinin ümumi işlər üzrə prorektoru olub.

Texnika elmləri üzrə fəlsəfə doktoru, dosentdir.

"Aİ-92" markalı benzin 1,50 AZN olacaq?



Sosial şəbəkələrdə Azərbaycanda oktyabr ayından benzinin bahalaşacağı bildirilir. Məlumatlara görə, "Aİ-92" markalı benzinin 1 litrinin qiyməti 1,50, "Aİ-95"in isə 2,50 AZN olacaq.

Bununla bağlı Pravda.az-a açıqlama verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev isə deyib ki, benzinin bahalaşmasına əsas görmür.

"Rəsmi mənbə belə bir məlumat vermirsə, deməli, bu, sadəcə, söz-söhbətdir. Benzinin bahalaşacağı barədə heç yerdə nə rəsmi məlumat görmüşəm, nə oxumuşam, nə də hardansa eşitmişəm. Şəxsən belə bir məlumatım yoxdur", - deputat bildirib.

Qubad İbadoğlunun qardaşı nədən narazıdır?

"Ombudsman Səbinə Əliyevaya, Penitensiar Xidmətin rəhbərliyinə və ədliyyə nazirinə bir daha sosial media vasitəsilə müraciət edirəm: Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun olaraq ya qardaşım Qubad İbadoğlunun müayinə və analiz nəticələrinin bizə təqdim olunmasını təmin edin, ya da imkan yaradın öz hesabımıza qardaşımı həkim müayinəsindən keçirək".

Bu barədə 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılan Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlunun qardaşı Qalib Toğrul bildirib.

Onun sözlərinə görə, yaxın günlərdə London həkimlərinin Qubad İbadoğluna yazdığı müalicə kursu başa çatır.

"Bundan sonra o, yenidən müayinədən keçməlidir. Qardaşım hazırda bir gündə 8 adda dərman qəbul edir. Mümkündür ki, müayinədən sonra həmin dərmanların bəzilərinin qəbulu saxlanılsın, yeniləri əlavə olunsun, dozaları azaldılsın və ya çoxaldılsın. Bunu nəzərə alaraq avqustun əvvəlində Bakı İstintaq Təcridxanasının rəhbərliyinə, Penitensiar Xidmətə, Ədliyyə Nazirliyinə və İnsan Hüquqları üzrə Ombudsmana Qubad İbadoğlunun təcridxanada aparılmış USM, EKQ, rentgen müayinələrinin və qanın, sidiyin və qalxanabənzər vəzin hormonal analizlərinin nəticələrini əldə etmək üçün rəsmi müraciət etmişdik ki, nəticələri Londondakı həkimə təqdim edək. Təxminən 1 aydan sonra sorğumuza Bakı İstintaq Təcridxanasının Tibb-Sanitar Hissəsinin rəisi Rəşad Hüseynov ümumi sözlərlə (qanda şəkərin miqdarı, arterial təzyiq bir qədər yüksəkdir və sair) cavab verib, müayinə və analiz nəticələrini təqdim etmək məsələsinin üstünə də gəlməyib. Təsəvvür edin ki, "Məhkumun tibbi kitabçasından çıxarış" adlanan cavabda konkret bir tibbi göstərici belə yoxdur".

İyulun 24-də Bakının Nərimanov Rayon Məhkəməsi Qubad İbadoğlu barədə 3 ay 26 gün həbs-qətimkan tədbiri seçib. Qubad İbadoğlu ittihamları qəbul etmir.



Avropa Məhkəməsi Azərbaycanı 65 min avrodan çox cərimələyib

Avqustun 31-də Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycandan 8 ərizə üzrə 3 qərar və qərardadını elan edib. Məhkəmə şikayətlər əsasında Azərbaycanı 65 min avrodan çox cərimələyib.

"Nabat Bağırova və başqa 5 ərizəçi Azərbaycana qarşı" işində ərizəçilər mülkiyyət hüququnun pozuntusunu mübahisələndiriblər. Ərizəçilərə məxsus əmlaklar - fərdi evlər, evlərə aid sahələr və ya mənzillər 2015-16-cı illərdə Bakıda yolun abadlaşdırılması layihəsi çərçivəsində sökülüb. Onlar qeyd edilən mülkiyyətlərinin özgəninkiləşdirilməsinin qanunsuz olduğunu, 1 saylı Protokolun 1-ci maddəsilə təminat altına alınan mülkiyyət hüququnu pozduğunu iddia ediblər.

"Suğra Quliyeva Azərbaycana qarşı iş" ərizəçinin Saray bələdiyyəsindən aldığı 0,3 hektar torpaq sahəsinin əlindən alınması ilə bağlıdır. Ərizəçi həmin sahədə ev tikib. Sonradan Milli Təhlükəsizlik Nazirliyi həmin sahəni ərizəçidən alıb, lakin kompensasiya ödənilməyib. 178 min manat məbləğində kompensasiya tələbi ilə iddia yerli məhkəmələr tərəfindən təmin edilməyib. Avropa Məhkəməsi hesab edib ki, 1 saylı Protokolun 1-ci maddəsi pozulub. Avropa Məhkəməsi ərizəçiyə maddi zərərə görə 62 200 avro, mənəvi zərərə görə 3000 avro ödənilməsini qərara alıb.

"Nəsimi Musayev Azərbaycana qarşı" işində Lerik rayonunda yaşayan ərizəçi Nəsimi Musayev 2011-ci ildə hərbi xidmətə çağırılıb. Lerik hərbi komissiyası ərizəçinin şəkərli diabet xəstəsi olması səbəbindən sülh dövründə hərbi xidmətə yararsız, müharibə vaxtı isə qismən yararlı olmasına qərar verib. Ərizəçi dəfələrlə komissiyaya müraciət edərək hərbi statusunu təsdiq edən hərbi biletin ona verilməsini xahiş edib, ancaq bileti ala bilməyib.

Kommunikasiya zamanı hökumət 6-cı maddənin pozulduğunu etiraf edib, ərizəçiyə 1000 avro ödəmək öhdəliyi götürüb.

YENİ MÜSAVAT
N 154 (8290) 1 sentyabr 2023

Kabel TV-lərdən evimizə soxulan erməni təbliğatı

Ekspert: "Vaxt yayımının dayandırılması qəliz məsələdir, ona görə ki..."

Bu gün ölkəmizdə dünya telekanallarına kabel televiziyaları vasitəsilə baxılır. Vətəndaşlarımız ölkəmizdə fəaliyyət göstərən müxtəlif kabel televiziyalarına abunə olur, ödəniş müqabilində kanallara baxa bilirlər.

Amma təəssüf ki, bu kanalların bir çoxunda ermənipərəst qüvvələrə meydan verilir. Bu da tamaşaçıların haqlı narazılığına səbəb olur. Sual edirlər ki, Azərbaycanda yayımlanan kabel televiziyalarına kim nəzarət edir, yaxud etməlidir?

Tamaşaçılar Bakıxeber.com-a bildirirlər ki, KATV, Ailə TV və başqa kabel televiziyalarında antitürk proqramlar yayımlanır. Onlardan birinin verdiyi məlumata görə, bir neçə gün əvvəl xarici kanallardan birində "erməni soyqırımı" ilə bağlı film gedib və kabel televiziyası vasitəsilə Azərbaycanda da yayımlanıb. Bir neçə gün əvvəl isə Kino+ kanalında "Erməni mədəniyyəti" adlı erməni cizgi filmi gedib, bura da Göyçə gölünü salıblar, onu erməni gölü kimi qələmə veriblər. Antitürk filmlər nümayiş olunanda bizim kabel televiziyalar onların yayımını kəsə bilərmi? Azərbaycanda bu məsələ necə həllini tapmalıdır?

Ekspertlər hesab edirlər ki, Azərbaycanda kabel televiziyası şirkətləri bu halın qarşısını ala bilərlər. Onların fikrincə, yayımlanan proqramların siyahısı olur və proqramlarda antitürk materiallar, erməni təbliğatına həsr olunan verilişlər olarsa, Azərbaycan yayımçıları həmin proqramı kəsməlidir.

Audiovizual Şuranın Aparat rəhbəri Fazil Novruzov qeyd edib ki, adıçəkilən kabel televiziyaları şura tərəfindən verilən platforma operatoru ("Media haqqında" Qanunun 1.1.21-ci maddəsinə əsasən platforma operatoru - proqramların, o cümlədən sifarişli yayım xidmətlərinin kabel, İPTV, OTT, mobil TV və peyklə kodlanmış yayım siqnalları vasitəsilə retranslyasiyasını həyata keçirən fiziki və ya hüquqi şəxsdir) lisenziyası ilə fəaliyyət göstərir. Platforma operatorları (eləcə də multipleks operatorları) retranslyasiya etdikləri xarici kanalların seçimində sərbəstdir və bu məsələdə şuranın müdaxiləsi yolverilməzdir:

""Media haqqında" Qanunun 1.1.23-ci maddəsinə əsasən retranslyasiya - hər hansı texnologiyadan istifadə etməklə televiziya və ya radio kanallarının, habelə proqramların və ya onların hissələrinin məzmununa dəyişiklik edilmədən yayımlandığı anda qəbulu və ötürülməsidir. Əslində burda operatorları da tam qınamaq olmaz, çünki retranslyasiya olunan 100-dən çox xarici kanalın kontentinə nəzarət etmək mümkün deyil. Amma qeyd olunan hallar varsa, həmin kanal hansı operator və ya operatorlar tərəfindən retranslyasiya olunursa, birbaşa onlara müraciət edib, həmin kanalın paketdən çıxarılmasını istəmək olar. Ümumiyyətlə, operatorlar retranslyasiya paketlərini formalaşdırmaqda sərbəstdir. Amma bu yenə də onları məsuliyyətdən azad etmir və diqqətli olub elə kontinentləri çox yayan xarici kanalları paketdən çıxarmaları yaxşı olardı".

Mövzu ilə bağlı teletənqidçi, professor Qulu Məhərrəmli "Yeni Müsavat"a danışıb. Ekspert qeyd edib ki, bu bir qədər qəliz xarakter daşıyır: "Əslində bu, çox çətin məsələdir. Burada iki aspekt var, birincisi odur ki, həmin kabel televiziyası yaradıcı prosesdə iştirak etmir, proqram siyasətini müəyyənləşdirmir, o, yalnız kanalları toplayır, cəmləşdirir, müəyyən paketlər halına salır və onu öz abunəçilərinə təqdim edir.

İkinci məsələ həmin kanallarda yayımlanan verilişlərin məzmunu ilə bağlıdır. Əlbəttə ki, KATV və ya da Ailə TV birbaşa o məzmuna cavabdeh deyil, həqiqətən də yaradıcı işə qarışa bilməz. Bəs çıxış yolu nədədir? Mənə elə gəlir ki, burada çox aydın şəkildə beynəlxalq təcrübədən çıxış edərək, addım ata bilərik. Belə ki, əgər kabel televiziyasının paketində yer almış hansısa televiziya kanalı mütəmadi olaraq Azərbaycan əleyhinə və yaxud Azərbaycan əleyhinə olan dövlətlərin və yaxud kanalların subyektlərin təbliğatını aparırsa, sadəcə olaraq, onu paketindən çıxarda, onunla müqaviləni dayandıra, yayımını apartəmsil olunur və yaxud birbaşa sahibləri ermənidir. Ona görə də onlar əllərində olan təbliğat "maşınından", o cümlədən televiziya, radio, media resurslarından istifadə edərək, öz maraqları çərçivəsində və yaxud Ermənistanın maraqlarına uyğun formada təbliğat apara bilirlər.

Azərbaycanın yerli kabel televiziyası operatorları da Rusiya kanallarını paket olaraq əvvəlcədən razılaşdırılmış, müqavilə üzrə abunəçilərə təqdim edirlər.

Burada yayımın dayandırılması məsələsi bir qədər qəlizdir. Ona görə ki, Azərbaycanda müxtəlif millətlərin nümayəndələri yaşayır. Ola bilər ki, kimsə həmin verilişlərin yayımının dayandırılmasını tələb etsin, kimsə isə Rusiyada ictimaiyyətin hansı istiqamətə yönlənməsindən məlumatlı olmağını istəyir və yayımının dayandırılmasının əleyhinədir. Yəni burada maraqlar toqquşur. Əlbəttə ki, heç birimiz vətəndaş olaraq Azərbaycan əleyhinə aparılan təbliğatdan məmnun ola bilmərik. Amma həmin antitəbliğata qarşı hansısa addımların atılması, bunun üçün hazırlıqlı olmaq, prosesləri izləmək üçün həmin kanallardan xəbərdar olmaq istəyənlər də var.

Daha bir məsələ, bu məsələdə proqramların məzmununa nəzarət etmək çətindir. Belə çıxır ki, kabel televiziyası operatorları daimi olaraq məzmunla məşğul olan əməkdaşlar ayırmalıdırlar ki, onlar daimi olaraq televiziya proqramlarını, filmləri izləməli, çeşidləməli ki, hansı saatda hansı proqramın, filmin yayımını dayandırmaq lazımdır, bu da düzgün forma olmur. Ona görə də düşünürəm ki, sadəcə, bu istiqamətdə məlumatlı, xəbərdar olub, əlimizdə olan platformalarda informasiya müharibəsinə davam etməliyik".

❑ **Xalidə GƏRAY**
"Yeni Müsavat"



Azərbaycanın notası: "Nous exigeons de la France que..."

Fransanın Azərbaycandakı səfiri Ann Buayon avqustun 31-də Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb. Bu barədə XİN-dən məlumat verilib. Görüş zamanı Paris şəhərinin meri Ann İdalqo daxil olmaqla, Fransanın bir neçə şəhərinin rəhbər şəxslərinin müşayiəti ilə "humanitar yük" adı altında Laçın sərhəd-buraxılış məntəqəsi istiqamətinə nəqliyyat vasitələrinin göndərilməsi və həmin şəxslər tərəfindən Azərbaycana qarşı təxribatçı bəyanatlar səsləndirilməsi ilə bağlı XİN-in etiraz notası Fransa səfirinə təqdim edilib.

Fransa tərəfinin bu addımlarının Azərbaycanın daxili işlərinə birbaşa müdaxilə olmaqla yanaşı, ölkəmizin beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı qəsd olduğu vurğulanıb.

Qeyd olunub ki, Ermənistanın yalan və manipulyasiya kampaniyasına alət olan bu təxribatçı əməllər bölgədə vəziyyətin gərginləşməsinə yönələn və Fransa tərəfindən Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirən və son günlər daha da intensivləşən addımların növbəti nümunəsidir.

Azərbaycan tərəfi beynəlxalq humanitar yardımın göndərilməsi ilə bağlı beynəlxalq hüquqi çərçivəyə zidd olaraq nümayişkaranə şəkildə Azərbaycan tərəfi ilə razılaşdırmadan, onun iradəsinin əksinə Azərbaycanın beynəlxalq tanınmış ərazisinə hər hansı bir ad altında yüklərin göndərilməsi cəhdini təxribatçı əməl kimi qiymətləndirib və buna qəti etirazı qarşı tərəfin diqqətinə çatdırılıb.

Azərbaycanın beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn, regionda beynəlxalq aktorların fəal səyləri ilə irəlilədilən kövrək normallaşma prosesini təhlükə altına alan addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb olunub.



Xankəndi ermənilər üç yol ayrıcında: işıqlı dünya, qaranlıq yol, Simurq quşu...

Separatçılar çətin seçim qarşısında qaldıqlarını etiraf edirlər: ya getmək, ya təslim olmaq, ya da...

Son günlər Xankəndidə intensivləşən müzakirələr Qarabağ separatçılarına rəhbərlik etmiş Bako Saakyan və Arkadi Qukasyanın, həmçinin "təhlükəsizlik şurası"nın keçmiş rəhbəri Samvel Babayanın iştirakı ilə keçirilir.

Ermənistanın "Hraparak" nəşri yazır ki, hazırda separatçı rejimə başçılıq edən Araik Arutyunyanın vəziyyətdən çıxmaq üçün bir neçə seçimi var. Onlardan biri Bakı ilə Xankəndi arasında birbaşa dialoqdur ki, Azərbaycan heç bir halda üçüncü tərəfin iştirakını istəmir. Arutyunyan Paris meri ilə söhbətində deyib ki, beynəlxalq təminatlar əhəmiyyətsizdir. O dolayısı ilə eyham vurub ki, Ağdam vasitəsilə Azərbaycandan yüklərin gətirilməsinə razılaşmaq lazımdır. İddia olunur ki, Araik daha sərt mövqedə olanların rəyini nəzərə alaraq, ikinci yol kimi hərbi müqavimətin təşkilini deyib. Amma onu da əlavə edib ki, silahlı müqavimət çoxsaylı insan itkiləri ilə nəticələnə bilər. Nəhayət, üçüncü yol qalır ki, o da ermənilərin Qarabağı kütləvi şəkildən tərk etməsidir. Ümumiyyətlə, tarixi torpaqlarımızda məskunlaşmış ermənilər hazırda ciddi dilemma, daha dəqiqi isə yuxarıda göstərilən bu üç yol ayrıcında seçim etməlidirlər.



Erməni nəşri iclasda gedən müzakirələrə istinadən onu da bildirib ki, Araik "daha gözləyəcək zaman yoxdur" deyib. "Qarabağ öz problemləri ilə baş-başa qalıb, özümüz qərar verməliyik". O, eyham vurub ki, ruslardan da heç bir gözlənti olmamalıdır. O da bildirilir ki, Bako Saakyan və Arkadi Qukasyan təklif ediblər ki, belə qərarlar hansısa kabinetlərdə alına bilməz, bunun üçün Qarabağda yaşayan erməni əhalinin fikrini öyrənmək lazımdır. Həmçinin onlar bildiriblər ki, "məhz Qarabağ ermənilərı bu danışıqları aparmaq və qərarları verməyi kimə həvalə edəcəyi məsuliyyətini üzərlərinə götürməlidir".

Maraqlı məqamlardan biri də odur ki, Saakyan baş verənlərə İrəvanın mövqeyini soruşub. Separatçı lider isə açıq etiraf edib ki, "İrəvan hökuməti "biz heç nə edə bilmərik, get problemlərini özün həll et" cavabını verib". Görünən budur - Qarabağ separatçıları və erməni əhali hər keçən gün daha yaxşı anlayırlar ki, daha göydən "üç alma" düşməyəcək. Əksinə, artıq "müstəqilik nağıllar"ı bitib. İndi əsas diqqətçəkən məqam budur ki, Xankəndi və ətrafında baş verənlərin üç yoldan hansı səmtə yönəldiləcəyinin məsuliyyətini üzərinə götürən yoxdur. Ona görə də seçim qərarını Qarabağda yaşayan ermənilərin üzərinə qoymaq istəyirlər. Araik də, digər sabiqlər də bu cür seçim qərarını təkbaşına verə bilməz. Amma zaman daralır və seçim etmək üçün qərar vermək lazımdır.

Birinci Qarabağ müharibəsində əli azərbaycanlıların qanına batan Samvel Babayan isə (özünü qondarma "vahid vətən partiyası"nın sədri kimi təqdim edir) yeni təkliflərlə çıxış edib. O, "AzadlıqRadiosu"na Ağdam və Laçın yolunun eyni vaxtda açılmasını təklif edib. Bununla bərabər, Babayan yolun açılması və 5-10 yük maşını yardımın gəlməsi ilə problemin həll edilməyəcəyini diqqətə çatdırıb. Babayan deyib ki, paket həll üçün təkliflər təqdim edilməli, o cümlədən Qarabağın taleyi və "status"nun necə olacağı aydınlaşmalıdır. O, Bakının bu təkliflərə razılaşacağına inandığını deyib. Başqa bir fikirlə separatçıların nümayəndəsi David Babayan çıxış edib. "Ağdam yolunun Laçın yoluna alternativ olması fəlakətə gətirib çıxaracaq. Üstəlik, Laçın yolu mütəmadi olaraq açılmayana qədər Ağdamdan danışmaq olmaz. Ağdam loqistikdir. Amma alternativ olmamalıdır", - Babayan söyləyib. **Separatçı deyib ki, Azərbaycanla Qarabağın statusu ilə bağlı danışmaq yersizdir.** "Bakı açıq şəkildə bəyan edib ki, Qarabağa heç bir status verilməyəcək. Üstəlik, tələb edirlər ki, Qarabağın iqtisadi rayonu var və orada yaşayan ermənilər Azərbaycana inteqrasiya olunmalıdır. Bunun fonunda hansı statusdan söhbət gedə bilər?"

Babayan hesab edir ki, Laçın yolunun bağlanması Rusiya və dünyanın problemidir. "Əgər Laçın yolu açılmasa, ya böyük qan töküləcək, yəni müharibə olacaq. Ya da biz Qarabağı tərk etməli olacağıq". Bu açıqlamalardan sonrakı mərhələ nədən ibarət olacaq? Separatçılar hansını seçəcəklər? Rusiya onlara hamiliyi davam etdirəcəkmi, yoxsa "artsax" mifi bitdi?

Hərbi analitik Alp Arslan İmamqulu bu prosesin məntiqi sonluğunun göründüyünü hesab edir. "Yeni Müsavat"a danışan hərbi ekspert hesab edir ki, onların taleyi Azərbaycanın şərtlərini qəbul edib-etməmələrindən asılıdır: "Bu cinayətkar qüvvələr Laçın yolunu icazəmiz olmadan bir daha istifadə edə bilməyəcəklərini anladıqları kimi, ərazilərimizdə terrorizmlə məşğul ola bilməyəcəklərini də dərk etməkdədirlər. Artıq Azərbaycan antiterror əməliyyatına başlayıb. Ümumən, terroru üç növ təsnifatlandırmaq olar - siyasi, dini və etnik. Biz "yumşaq güc" alətlərindən istifadə edərək artıq antiterror əməliyyatları başlamışıq. Xunta rejimi isə bunun qarşısında dayana bilmədiklərini anlayır". **Onun fikrincə, oyuncaq rejim vaxtaşırı rəqəmləri şişirdərək guya Qarabağda 120 min erməni yaşadığını bəyan etsə də, buna heç kəs inanmır, onların sayının az olduğunu yaxşı bilirik:** "Ona görə seçim özlərinindir. Əhali bütün bu baş verənlərdən sonra qərar verməlidir. Amma əli qana batmış Köçəryan, Serjik Sərkisyan, oyuncaq qurumun başında oturan Araik Aryutyunyan və digərləri qanunvericilik çərçivəsində mühakimə ediləcəklər. Onlar ya Qarabağda, ya da İrəvanda yaxalanacaqlar". **Hüquq müdafiəçisi Xəzər Teyyublunun fikrincə, beynəlxalq hüquq bizdən yanadır. Onun sözlərinə görə, Fransa istisna, heç bir qüvvə Azərbaycanın son addımlarını pisləmir:** "Dünya qəbul edir ki, azsaylı etnik ermənilərin yaşamasına, dil, din, mədəni və bələdiyyə hüquqlarına Azərbaycan təminat verir. Bundan başqa onlara hansı imtiyazlar tanına bilər? Hər iki yoldan humanitar məqsədlər üçün istifadənin şərtləri də irəli sürülüb, Qərb və Rusiya bununla da razılaşıb, ayrı nə təklif etmək olar? Sadəcə, Fransa gecə-gündüz "banlayır" və artıq onların yükləri də geri qayıtdı. Yəni əli hər yerdən üzülmüş separatçılar başa düşürlər ki, çıxılmaz vəziyyətdir. Araik etiraf etdi ki, dünya ictimaiyyətinə güvənmirik, heç ruslara da inanmırıq. Ona görə getmək məcburiyyətində qalacaqlar. Ya rusların maşınında, ya helikopterlə Qarabağdan qaçacaqlar. Çünki Araik və dəstəsi Xaçatryanın taleyini yaşayacaq. Orada az sayda erməni əhalisi qala bilər ki, onlar da yaşasınlar, işləsinlər, hər hansı təzyiq göstərilmir. "Laçın" yolundan da yoxlanıb sərbəst şəkildə gedib-gəlirlər". **Hüquq müdafiəçisi dünyanın heç bir ölkəsində separatizmə sona qədər səbir göstərilmədiyi qənaətindədir**: "Fransada separatçıların başını əzirlər. İspaniyada vəhşicəsinə davranırlar. Amerika Texasın ayrılmasına qarşı çıxır. Rusiyada buna təmkinlə yanaşmırlar. Ukrayna Donetsk və Luqanskda yaradılmış qondarma respublikaların silahlı dəstələrinə qarşı amansız mübarizə aparır. Yəni hansı ölkədə separatizm yaxşıdır ki, bizdən də bunu tələb edirlər? Ona görə də Araik, Balasanyan, Babayan, Vardanyan və başqalarının başı əzilməlidir. Onlar mərkəzə tabe olmayan və qanunsuz silahlı birləşmələr saxlayırlar. Əgər yaxşıdırsa, Fransanın Marsel şəhərinə həmin silahlı qüvvələri göndərək, NATO ordusu olan fransız silahlı qüvvələri də buna səbir nümayiş etdirsin".

Beləliklə, Xankəndi ermənilərı üç yolun ayrıcındadır. "Müstəqillik nağıllardan" əl çəkib Azərbaycana, yəni işıqlı dünyanın yolunu tutmaq, ya yenə də qaranlıq vəd edən yolla davam etmək. Fransa və digər dəstəkçi ölkələr isə onları xilas edəcək Simurq quşu heç vaxt olmayacaq!

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"

Babayanın Bakıya göndərdiyi paketin içərisində nələr var?

Xankəndidəki separatçı rejimin "təhlükəsizlik şurasının keçmiş katibi" Samvel Babayan azərbaycanlılara "təkliflər paketi" göndərib.

Bu barədə Ermənistanın "Past" qəzeti yazır.

Qəzet separatçıların ötən günlərdə Xankəndidə baş tutmuş 6 saatlıq toplantının yeni təfərrüatlarını öyrəndiyini iddia edir:

"Gecə saatlarına qədər gedən müzakirə zamanı diqqətçəkən bir epizod qeydə alınıb. Samvel Babayan çıxışında Bakıya "təkliflər paketi" göndərdiyini açıqlayıb. Söhbətin nədən getdiyi, "paket"in məzmununun nədən ibarət olduğu, Babayanın azərbaycanlılara hansı təklifləri göndərdiyi məlum deyil. Sonuncu yalnız Araik Arutyunyanın bundan xəbərinin olduğunu deyib. Əgər bu, Araik Arutyunyanın bilgisi daxilində baş verirsə, bu nədir, niyə gizli saxlanılır?

Qarabağdakı mənbələrimiz deyir ki, Samvel Babayanın azərbaycanlılarla birbaşa təmasların və Ağdam-Xankəndi yolunun açılmasının tərəfdarı olduğunu nəzərə alsaq, o zaman bu təkliflərin nələrdən ibarət olduğu məlumdur".

Azərbaycan güzəştə getmir: təzyiqə dözəcəkmi?

"Situasiya müxtəlif cür inkişaf edə bilər: bu, təzyiqin necə göstəriləcəyindən və Azərbaycanın nəyə hazır olmasından, nəyə hazır olmamasından asılıdır".

Bu sözləri politoloq Aleksandr İsgəndəryan erməni mediasına açıqlamasında deyib. Onun fikrincə, vəziyyətin inkişafının birinci variantı ondan ibarətdir ki, Azərbaycan heç bir tərəfdən (Laçın və Ağdam yolları - red.) humanitar yardıma icazə verməyəcək və Avropanın artan təzyiqi ilə vəziyyət təxminən indiki kimi qalacaq.

İsgəndəryan qeyd edib ki, Ermənistana və Qarabağa da qapalı formada təzyiq edildiyi şübhəsizdir, ancaq hazırda açıq təzyiq Azərbaycanadır: "Fransadan gələn humanitar yük nə deməkdir? Bu, sadəcə, hansısa ictimai təşkilat deyil, burada siyasi kontekst var. Digər tərəfdən, Azərbaycanın necə reaksiya verdiyini görmək olar. İnsanların həbsi və saxlanması da təsadüfi deyil".

O, Bakının vasitəçi qəbul etməyə hazır olduğuna şübhə etdiyini bildirib: "Çünki Bakının konsensus və güzəşt etmək fikri yoxdur".

İsgəndəryan ikinci variant kimi hər iki yolun açıla biləcəyini qeyd edib: "Ancaq burada da altvariantlar var: yollar hansı formada açılacaq, hansı müddətə, hansı müddətdən sonra bağlanacaq, bu, sadə keçid olacaq, yoxsa təchizat fürsəti yaradacaq. Təsəvvür etmək çətindir ki, azərbaycanlılar Ağdamdan keçid olmadan Laçından yük göndərməyə razılaşsınlar. Düşünmürəm ki, bunu edəcəklər".

"Laçın dəhlizindəki hazırkı vəziyyət Ermənistanın Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanımasının nəticəsidir".

Zaxarovadan "Qarabağı tanıdınız..." sitəmi- XİN rəsmisinin mesajının pərdəarxası...

Ekspertlərə görə, Moskvadakılar demək istəyirlər ki, Azərbaycanın ərazi bütövlüyünü tanımısınız və o zaman nəticələrinə də qatlaşın

Rusiya XİN-in sözçüsü Azərbaycan bayrağını təhqir etdiyinə görə erməni futbolçuların Laçın sərhəd-buraxılış məntəqəsində saxlanılmasında Rusiya sülhməramlılarının da günahkar olması ilə bağlı suala cavabında belə deyib.



Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsinin bundan sonra dedikləri də diqqət çəkir. "Bu, Avropa İttifaqının himayəsi altında ötən ilin oktyabrında və bu ilin mayında hər iki ölkənin liderinin iştirakı ilə keçirilən sammitində qeydə alınıb (Ermənistanın keçmiş Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanıması-red.) Bu barədə Rusiya XİN-in "Qarabağ ətrafındakı vəziyyətlə bağlı" 15 iyul 2023-cü il tarixli bəyanatında da aydın deyilib. Bu məzmunda məsuliyyəti Rusiya sülhməramlı kontingentinin üzərinə qoymağı yersiz, düzgün olmayan və haqsız hesab edirik. İrəvan və Ermənistan hakimiyyəti tərəfindən Dağlıq Qarabağın Azərbaycana məxsusluğunun tanınmasından sonra yaranan yeni şəraitdə Rusiya sülhməramlı kontingentinin vəzifəsi Azərbaycana Qarabağ ermənilərinin bütün hüquq və təhlükəsizliyini təmin etməyə, o cümlədən Bakı ilə Xankəndi arasında birbaşa dialoqun qurulmasına bütün mümkün yardımı etməkdən ibarətdir", - deyə Rusiya XİN sözçüsü qeyd edib.

"Rusiya tərəfi Xankəndinə Azərbaycan ərazisində rəsmi Bakı ilə danışıqlar aparmağı təklif edir. Qarabağ ermənilərinin təhlükəsizliyinə kim təminat verir" sualına cavabında Zaxarova qeyd edib ki, bu sualın cavabı çox sadədir: "Əgər nə barədəsə razılaşma olubsa, üstəlik, imzalar atılıbsa, üstəlik, yüksək səviyyədə bu imzalar atılıbsa, bunu reallaşdırmaq lazımdır. Üçüncü tərəfləri, artıq üçüncü deyil, beşinci, onuncu tərəfləri cəlb etməklə yeni konstruksiyalar fikirləşmək lazım deyil... Razılaşmalar var, onları icra etmək lazımdır. Bu elə zəmanət deməkdir".

Rusiya XİN sözçüsü Ermənistan rəhbərliyinin əsas məsələ ilə bağlı mövqeyində kardinal dəyişikliyin olduğunu xatırladıb: "Ermənistan rəhbərliyinin əsas məsələ ilə bağlı mövqeyi kardinal şəkildə dəyişib. Üstəlik, məhz İrəvan üçün əsas olan məsələ ilə bağlı... Bu, İrəvanın məsələsidir, onların daxili qərarıdır".

Zaxarovanın "Laçın dəhlizindəki hazırkı vəziyyət Ermənistanın Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanınmasının nəticəsidir" fikrinin arxasında nə durur? Belə çıxır ki, İrəvan Qarabağı Azərbaycanın ərazisi kimi tanımasaydı, indi fərqli durum yaranacadı?

Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova ilk dəfə deyil bu qəbildən iddialar səsləndirir. Bu iddialara bir neçə kontekstdən yanaşmaq olar: "Birincisi, ilk və hər kəsin ağlına gələ biləcək birbaşa versiyadır. Yəni Moskva Ermənistanın Qarabağı Azərbaycan ərazisi kimi tanımasından narahatdır və İrəvanın ərazi iddialarını davam etdirməsi onun üçün daha əlverişlidir. Çünki belə olduğu təqdirdə, Rusiya sülhməramlıları Azərbaycan ərazilərindəki fəaliyyətlərini, hətta buna hüquqi əsas olmasa da "mübahisəli ərazilərdəki" missiya kimi təqdim edir, digər separatçı bölgələrdəki təxribat planlarını burada da davam etdirir. İndiki şəraitdə Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını bəyan etməklə, bu ərazilərin mübahisəli olmadığını beynəlxalq ictimai rəyə təqdim edib və bu da Rusiya sülhməramlılarının Qarabağdakı fəaliyyətinin cərçivəsini daraltmaqla yanaşı, rəsmi Moskvanın manevr imkanlarını da məhdudlaşdırıb. Hazırda Rusiya sülhməramlılarının Qarabağdakı missiyasının mövcudluğunu əsaslandıra biləcək heç bir hüquqi sənəd yoxdur. Sülhməramlılar 10 noyabr 2020-ci il Bəyannaməsinə əsasən, Azərbaycan ərazisinə gəliblər. Həmin dövrdə Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəkməmişdi və həm de-fakto, həm də sözügedən bəyannaməyə görə tərəf hesab olunurdu. İndi Ermənistan sırf konkret əraziyə iddia baxımından tərəf deyil. Qarabağdakı qanunsuz, separatçı rejim isə ümumiyyətlə, tərəf deyil və onların adı 10 noyabr bəyannaməsində keçmir. Deməli, Rusiya sülhməramlılarının Azərbaycan torpaqlarındakı mövcudluğu ilə bağlı qərar verəcək yeganə beynəlxalq hüquqi subyekt Azərbaycandır. O zaman Azərbaycan Rusiya sülhməramlılarına istədiyi vaxt "get" deyə bilər və belə olduğu təqdirdə, sülhməramlıların Azərbaycan ərazilərində qalmaları üçün də heç bir hüquqi əsas olmayacaq. Belə olduğu təqdirdə, Rusiya sülhməramlıları ya Azərbaycan ərazilərini tərk edəcək, ya da separatçı rejimlə işbirliyinə gedərək, ölkəmizin ərazisində qeyri-qanunu mövcudluqlarını davam etdirəcək, de-yure işğalçı statusu qazanacaqlar. Belə bir mənzərə yaranacaq ki, Ermənistanın işğalı Rusiyanın işğalı ilə əvəz olunub. Şübhəsiz ki, bu nəzəri mülahizədir və Moskvanın belə bir ssenari üzrə hərəkət etməsi bu ölkənin Cənubi Qafqazdan birdəfəlik getməsi ilə nəticələnə bilər".

E.Mirzəbəyli vurğuladı ki, Lavrovun mülahizələrini təkrarlayan Mariya Zaxarovanın açıqlamasından çıxara biləcəyimiz başqa bir qənaət isə Ermənistana mövcud reallıqların başa salınmasına xidmət edə bilər: "Yəni Azərbaycanın ərazi bütövlüyünü tanımısınız, o zaman nəticələrinə də qatlaşın, Rusiya daha yaxın olduğunu düşünürəm və hesab edirəm ki, Zaxarovanın mesajı Ermənistan rəhbərliyinə ünvanlanıb".

Politoloq Murad Sadəddinov isə bildirdi ki, Rusiyanın "Qarabağ kartı"ndan Nikol Paşinyan hakimiyyətinə qarşı istifadəsi bu gün də davam edir. Zaxarovanın bu açıqlaması da Paşinyana təzyiqdir və bu açıqlama ilə Rusiya Ermənistan cəmiyyətini, Qarabağ ermənilərini Paşinyana qarşı qaldırmaq niyyəti güdür: "Eyni zamanda Zaxarova belə bir açıqlama verməklə ermənilərə mesaj verir ki, bundan sonra baş verənlərə görə günahkar Paşinyandır. Moskva Paşinyan iqtidarını devirmək üçün şərait yaranmasına çalışır. Rusiya ermənilərin prosesdə labüd məğlubiyyətini açıq kartla Nikol Paşinyanın üstünə atmaq istəyir. Açıq mətnlə bəyan edirlər ki, Nikol Paşinyan Qərbin istəyi ilə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Əlbəttə ki, Paşinyan bir müddət öncə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etməsəydi belə, Azərbaycan öz haqlı mövqeyində, siyasətində, mübarizəsində indiyə qədər olduğu kimi davam edəcəkdi və indiki nəticələrə onsuz da nail olacaqdı. Rusiya, sadəcə olaraq, narazı erməni ictimaiyyətini Paşinyana qarşı daha da qəzəbləndirmək üçün Zaxarovanın dili ilə məlum bəyanatı vermiş oldu".

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"



Qarabağdakı sülhməramlılara nəzarət Kulakova verildi

Azərbaycanın Qarabağ iqtisadi rayonu ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin yeni komandiri təyin edilib. Bildirilir ki, general-mayor Kirill Kulakov Rusiyanın Qarabağdakı sülhməramlı qüvvələrinə rəhbərlik edəcək.

General-mayor Kirill Kulakov 2017-ci ildən Kulakov Kazan Ali Komandanlıq Məktəbinin rəisi, bundan əvvəl isə RF Silahlı Qüvvələrinin Suvorov Tank Briqadasının 7-ci korpusunun komandiri olub. 20 iyul 1969-cu ildə Tatarıstanda anadan olan Kulakov 1990-cı ildə Kazan Ali Hərbi Komandanlıq Məktəbini bitirib. 1995-2014-cü illərdə - Kazan Ali Hərbi Komandanlıq Məktəbində müəllim işləyib. 2014-2017-ci illərdə - Orenburq kazak briqadasının Suvorov, Kutuzov və Aleksandr Nevskinin Qırmızı Bayraq ordenli 7-ci Ayrı-ayrı Mühafizə Tankının (Çebarkul), 2017-ci ilin martından isə Kazan Ali Hərbi Komandanlıq Məktəbinin komandiridir. Kulakov haqqında ötən ilin noyabrında Qərb mətbuatında xoşagəlməz xəbərlər yayılıb. 53 yaşlı general-mayor Kazandakı təlim bazasında əsgərlərin etiraz aksiyası zamanı açıq şəkildə təhqir olunub. Əsgərlər onun ünvanına "buradan get", "ar olsun sənə" kimi şüarlar səsləndiriblər. Buna qədər yolu Qarabağa düşən Rusiya generalları bunlar olub - Rüstəm Muradov, Mixail Kosobokov, Gennadi Anaşkin, Andrey Volkov və Aleksandr Lentsov. Baxaq görək yeni komandan - Kulakov özünü necə aparacaq?



Türkiyə Azərbaycanı sona qədər dəstəkləyir - səfir

Üç ildir davam edən sülh prosesi var. Sülh danışıqları zamanı humanitar böhran yaratmaq səyləri sülhə kömək etməyəcək, əksinə, bu prosesi dayandıracaq. Əgər məsələ ərzaqdırsa, o zaman bunun Azərbaycanın təklif etdiyi ərazi daxilində həll yolu var.

Bunu diplomatik korpus nümayəndələri ilə Ağdam-Xankəndi yoluna səfər etmiş Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı deyib.

"Söhbət humanitar böhrandan gedirsə, Xankəndi ilə aramızdakı yol ən qısa məsafədir. Əgər hansısa ehtiyac varsa, bununla bağlı Azərbaycan Qızıl Aypara Cəmiyyəti humanitar addım atıb, yük maşınları ilə un gətirib. Bunun qəbul edilməsi lazımdır", - deyə o əlavə edib.

Cahit Bağçı bildirib ki, Türkiyə Azərbaycanın bu istiqamətdəki səylərini sona qədər dəstəkləyir.

Araikin "istefası" - Xankəndidə "kreslo qırğını" başladı

İşğalçı rejimin "konstitusiyasına" görə, "prezident" səlahiyyətləri "parlament sədri" David İşxanyana keçməlidir; amma digər "namizədlər" də var

Azərbaycanın Qarabağ bölgəsinin bir hissəsinə nəzarət edən işğalçı rejimin başçısı Araik Arutyunyan avqustun 31-də istefa bəyanatı verib. Məlumata görə, o, rəsmi ərizəsini "parlamentə" sentyabrın 1-də təqdim edəcəyini vurğulayıb.

Araik Arutyunyan həmçinin deyib ki, Qurgen Nersisyanı "dövlət naziri" vəzifəsindən çıxararaq həmin posta Samvel Şahramanyanı təyin edib. Qurgen Nersisyan 2023-cü il martın 1-dən "dövlət naziri" idi.

İşğalçı rejimin "konstitusiyasına" görə, "prezident" səlahiyyətləri "parlament sədri" David İşxanyana keçməlidir.

Xatırladaq ki, bir neçə gün əvvəl Ermənistan mətbuatı Araik Arutyunyanın "istefa" qərarı ilə bağlı məlumat yaymışdı. Amma Araik bu qərarını elan etməyə tələsmədi ki, bu da erməni əsilli rusiyalı milyarder Ruben Vardanyanın qəzəbinə səbəb oldu, o da Arutyunyanı yalan danışmaqda və özü də daxil olmaqla 8 nəfərin yanında verdiyi vədi yerinə yetirməməkdə ittiham etdi. Belə anlaşıldı ki, təxminən səkkiz nəfər Araiki istefaya məcbur edir. Haqqın.az yazır ki, şübhəsiz, onlardan biri Ruben Vardanyandır. Bəs qalan yeddi nəfər - "seçilmiş prezidenti" istefaya məcbur edənlər kimlərdir?

Bu kontekstdə Rusiya vətəndaşlığından imtina edən və Qarabağda qeyri-qanuni məskunlaşan Ruben Vardanyanın missiyasının əslində Ermənistanda hakimiyyətə gəlməli olduğu barədə iddialar yada düşür. Ermənistanın baş nazirinin ətrafındakı mənbələr güman edirdi ki, ilk mərhələdə Vardanyan Qarabağda qondarma "dövlət naziri" vəzifəsində populyarlıq qazanacaq, daha sonra isə bilavasitə Ermənistanda siyasi planları var. Yeri gəlmişkən, Vardanyan özü də Rusiya mətbuatına verdiyi bir neçə müsahibədə siyasi ambisiyalarını gizlətməyib.

Amma Azərbaycan Vardanyanın, onun arxasında duran qüvvələrin Qarabağda və ondan kənarda planlarını alt-üst etdi. Rəsmi Bakının təzyiqlərinə tab gətirməyən Vardanyan bir neçə ay sonra "dövlət naziri" kürsüsünü tərk edərək, guya "Araik Arutyunyanla fikir ayrılığına görə" istefa verdiyini bildirdi.

Hazırda Vardanyan Xankəndidə "hakimiyyət"ə can atan, Ağdam-Xankəndi yolunun açılmasına fəal şəkildə qarşı çıxan erməni separatçılarının "fraksiyalarından" birinə rəhbərlik edir. Bu yolun beton bloklarla bağlanması təşəbbüsünə şəxsən Ruben Vardanyanın rəhbərlik etdiyi məlumdur.

Xankəndidə "hakimiyyət"ə daha bir iddiaçı keçmiş "Artsax" səhra komandiri Samvel Babayan və onun dəstəsidir. Babayanın fikirləri Vardanyanın fikirləri ilə tamamilə ziddiyyət təşkil edir, o hesab edir ki, Ağdam yolundan istifadə etmək və Azərbaycanla birbaşa dialoq qurmaq lazımdır.

Keçmiş səhra komandiri ictimai çıxışlarında Paşinyanı və onun siyasi xəttini mütəmadi olaraq tənqid etsə də, Qarabağ separatçı dairələrində Samvel Babayanın Ermənistan hakimiyyətinə tabe olması barədə fikir formalaşıb.



Erməni mənbələrinin məlumatına görə, Babayan son günlər nəzərəçarpacaq dərəcədə fəallaşıb. Araik Arutyunyanın mövqelərinin necə zəifləyiini görən Babayan "prezident" kürsüsünü tutmağa hazır olduğunu gizlətmir də. Üstəlik, Babayan müxtəlif siyasi və ictimai dairələrlə görüşlər keçirir, özünü açıq şəkildə gələcək "Artsaxın prezidenti" kimi təqdim edir.

Amma müşahidəçilərin fikrincə, Babayanın Araik Arutyunyanın yerinə oturmaq şansı o qədər də yüksək deyil. Xüsusilə də Qarabağda Babayan "Nikolanın adamı" hesab edilir və Ağdam yolundan istifadənin zəruriliyi ilə bağlı bəyanatlarına görə tənqid edilir.

Yuxarıda da qeyd etdiyimiz kimi, Arutyunyanın "səlahiyyətləri" özünü "parlamentin spikeri" adlandıran daşnak David İşxanyana keçməlidir. Bugünlərdə erməni silahlı birləşmələrinin və radikal revanşist dairələrin dəstəyini almağa çalışan, Ağdam-Xankəndi yolunun açılmasına "icazə verməyəcəyini" bildirib.

"Yeni Müsavat" bildirir ki, 1968-ci ildə Martuni (Xocavənd) rayonunun Heşan kəndində doğulan David İşxanyan 1992-ci ildə Stepanakert (Xankəndi) Pedaqoji İnstitutunun tarix-hüquq fakültəsini bitirib. Azərbaycan torpaqlarının işğalının fəal iştirakçısıdır, 1992-1995-ci illərdə Martuni batalyonlarının birinə komandirlik eləyib.Heşan kənd məktəbinin direktoru, kənd icmasının başçısı olub.1989-cu ildən Daşnaksütyun Partiyasının üzvüdür. 2007-2021-ci illərdə qurumun Mərkəzi Komitəsinin Yuxarı Qarabağda təmsilçisi postunu tutub. 2022-ci ildən Büro üzvüdür. 1991, 2015 və 2020-ci illərdə "parlamentin üzvü" seçilib. 2023-cü il avqustun 7-də "sədr" vəzifəsinə mandat alıb.

"Yeni dövlət naziri" Samvel Şahramanyan isə 1978-ci ildə Xankəndidə doğulub. İqtisadiyyat üzrə ali təhsil alıb. 2023-cü il yanvarın 16-dan "Təhlükəsizlik Şurasının katibi" idi. Əvvəllər "Milli Təhlükəsizlik Xidmətinin direktoru"; "hərbi vətənpərvərlik, gənclər, idman və turizm naziri" postlarını tutub. O, 2023-cü il martın 1-i Xocalı şəhərində, Rusiya sülhməramlı kontingentinin qərargahında Azərbaycanın Qarabağda yaşayan ermənilərlə təmaslar üzrə məsul şəxsi, deputat Ramin Məmmədovla keçirilmiş görüşdə erməni nümayəndə heyətinə başçılıq edib.

Xankəndidə baş verənləri şərh edən siyasi ekspert Elxan Şahinoğlu deyib ki, Araik Arutyunyanın "istefası" Qarabağdakı xaosun qarşısını ala bilməyəcək. "Onun "vəzifəsini" müvəqqəti icra edən növbəti separatçının iki seçimi olacaq: ya Arutyunyanın təxribatçı siyasətini davam etdirmək, ya da Bakı ilə dialoqa razılaşmaq və Ağdam-Xankəndi yolunun açılmasını təmin etmək.

Bu iki seçim də separatçıların yeni "liderini" xilas etməyəcək. Hər iki variant separatçılar və bölgə ermənilərini arasında ixtilafı dərinləşdirəcək. Bu bizim üçün faydalıdır. Bir məsələ də var: separatçıların işğal altındakı bölgədə qondarma "prezident seçkisi" keçirməsinə imkan verməməliyik!"

❑ **Orxan ƏLİYEV,**
"Yeni Müsavat"

"Tramp Bakıya qaça bilər..." - ABŞ mediasından sensasion iddia

Azərbaycanın ABŞ-la "Qarşılıqlı hüquqi yardım haqda" müqaviləsi yoxdur, amma...

ABŞ-ın sabiq prezidenti və yenidən prezidentliyə namizəd Donald Trampa qarşı dördüncü ittiham irəli sürülüb. Ağ Evin keçmiş rəhbəri simvolik olaraq həbs edilib və sonra 200 min dollar girov müqabilində sərbəst buraxılıb və məhkəmə başlayana qədər azadlıqda qalacaq.

Məlumdur ki, Tramp özü bu ittihamları rədd edir, prokurorları və hakimləri "siyasi motivli təqiblərdə" suçlayır. Bununla belə, sabiq prezidentin əleyhdarları arasında həbs təhlükəsinin real olduğunu görsə, ölkədən qaçacağına inananlar da var. Maraqlıdır ki, Azərbaycan təqsirləndirilən prezidentin potensial "sığınacaqlarından" biri kimi göstərilir.

19fortyfive.com internet nəşri yazır ki, (mənbə.haqqın.az) Trampın həbs olunmamaq üçün ölkəni tərk etməsi ehtimalı çox aşağıdır.



Bununla belə, keçən həftə jurnalist Heidi-Sigmund Cuda Byline "Times"da Trampın hər şeydən sonra ölkəni tərk edəcəyini söyləyib.

"Mən 2017-ci ildən Trampın 40 ən yaxşı dostu ilə birlikdə Moskvaya qaçacağını proqnozlaşdırırdım" jurnalist yazıb. Keçmiş federal agent Martin Şeyl deyib ki, "Rusiyada Donaldı əyləndirmək üçün kifayət qədər qolf meydançaları olmadığına" görə keçmiş prezident Yaxın Şərqdə məskunlaşmaq istəyə bilər. "Trampın Dubayda qolf meydançası var və o, həm də dünyanın aparıcı çirkli pulların yuyulma mərkəzidir", - Şeyl bildirib. "Beləliklə, Tramp pulunu və qolf dəyənəklərini təhlükəsiz, isti hava sığınacağına köçürə bilər".

Mühafizəkar "The New York Sun" qəzeti də biznesi Trampın hara qaça biləcəyi ilə bağlı fərziyyələr yazır. Qəzetin iddiasına görə, Tramp Birləşmiş Ərəb Əmirliklərinə və ya Azərbaycana sığına bilər. Çünki bu iki ölkənin də Amerika ilə ekstradisiya müqaviləsi yoxdur. Qeyd edək ki, Tramp prezident seçilməzdən əvvəl Azərbaycanın keçmiş nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovla biznes tərəfdaşlığı qurub. Bu əməkdaşlıq nəticəsində Məmmədovlar ailəsi holdinqi Bakıda "Trump Hotel" brendi altında mehmanxana tikib. Lakin Tramp prezident seçildikdən və onun Rusiya ilə əlaqələri ilə bağlı araşdırma başlandıqdan sonra qalmaqallı prezidentin adı hotelin adından çıxarılıb. Hotel hələ də qapalıdır, işləmir. Trampın Azərbaycana qaçmaq iddiası nə gerçəkləşə bilərmi? Bu ehtimal doğrulsa, Azərbaycan hüquqi müstəvidə məsuliyyət daşıyırmı? Belə bir halda hansı mövqe sərgiləməliyik? Milyardlara sahib olan, ölkəyə pənah gətirən Trampa qucaq açmalı yoxsa onu qapıdan yola salmalıyıq?

Hüquqşünas Əkrəm Həsənov "Yeni Müsavat"a deyib ki, sabiq ABŞ prezidenti Donald Trampın ümumiyyətlə qaçmaq istəməsi haqda versiya şübhəli görünür: "Hesab edirəm ki, bu, sabiq prezidentinin rəqiblərinin uydurmasıdır. Donald Tramp var gücü ilə prezident seçkilərinə hazırlaşır. ABŞ qanunları ilə şəxsi qısa bir zaman içində həbs etmək mümkün deyil. Böyük ehtimalla seçkiyə görə Donald Trampı saxlaya bilməyəcəklər. Hətta belə bir təhlükə olsaydı belə, məncə, Tramp qaçmazdı. Çünki bu ABŞ-da vətəndaş müharibəsinə gətirib çıxara bilər".

Hüquqşünas deyir ki, bu ehtimal gerçək olsa belə, Donald Trampın Azərbaycana gələcəyi inandırıcı deyil: "Bu halda, Azərbaycan ABŞ-ın təzyiqinə, sadəcə, dözə bilməz. ABŞ Donald Trampı tələb etsə, biz onu təhvil verməli olacağıq. İkinci variantımız yoxdur. Düzdür, Azərbaycanın ABŞ-la "Qarşılıqlı hüquqi yardım haqda" müqaviləsi yoxdur. Bu halda, qanunla Donald Trampa siyasi sığınacaq verə bilərik. Amma gəlin unutmayaq ki, Azərbaycanın valyuta ehtiyatları harada saxlanılır. Bu halda ABŞ-da saxlanan valyuta ehtiyatlarımız təhlükə altına düşə bilər. Bu nöqteyi-nəzərdən çox ciddi iqtisadi sanksiyalarla üz-üzə qala bilərik. Qanunla biz Trampa siyasi sığınacaq verə bilsək də, təbii ki, dövləti maraqları nəzərə alıb bundan vaz keçərik".

Hüquqşünas deyib ki, sabiq ABŞ prezidentinin belə bir fikri olsa, gedə biləcəyi, rahat şəkildə sığına biləcəyi ölkə Rusiyadır: "Tramp Rusiyaya getsə, ABŞ tələb etsə belə, Rusiya onu təslim etməz. Onsuz da Rusiyaya qarşı sanksiyalar tətbiq olunub və olunmaqdadır. Bu baxımdan, Rusiya hazırda "islanmışın yağışdan qorxusu olmaz" vəziyyətindədir. Tramp orada özünü rahat hiss edə bilər. Amma onun ABŞ-dan qaçmaq kimi fikrinin olduğuna inanmıram".

❑ **E.MƏMMƏDƏLİYEV,**
"Yeni Müsavat"

Səfirliklərimiz təhdid altında

Dövlət diplomatlarını öz gücünə qorumaq məcburiyyəti ilə üzləşib

Avqustun 30-da Daşnaksütyun partiyasının üzvləri Azərbaycanın Livandakı səfirliyinin qarşısında aksiya keçiriblər. Etirazçılar səfirliyin divarını qırmızı rənglə boyayıblar və bildiriblər ki, bu Bakının soyqırım siyasətinə etiraz əlamətidir.

Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, Azərbaycanın Livandakı səfirliyi qarşısında aksiya keçirən 50-yə yaxın ermənisilli şəxs səfirliyin inzibati binasının ətrafındakı hasara zərbələr endirib, özləri ilə gətirdikləri içərisində boya olan və partlayıcı bərkidilmiş şüşələri səfirliyin inzibati binasına atıb. Hücum nəticəsində səfirliyin heyəti xəsarət almayıb.

Məlumata əsasən, hadisə barədə diplomatik nümayəndəliklərin mühafizəsinə cavabdeh olan quruma məlumat verilən kimi hüquq-mühafizə orqanları hadisə yerinə gəlsələr də, həmin vaxt təxribatçılar ərazidən uzaqlaşmağa müvəffəq olublar. Səfirliyə qarşı törədilən bu hücumla əlaqədar cinayətkarların aşkarlanması və həbs edilməsi məqsədilə Livanın Xarici İşlər Nazirliyinə müvafiq nota təqdim edilib və aidiyyəti üzrə tədbirlər həyata keçirilir. Hazırda səfirliyin mühafizəsi daha da gücləndirilib və törədilmiş cinayətlə bağlı araşdırma aparılır.

Xatırladaq ki, ölkəmizin xarici diplomatik korpusları ilk dəfə deyil ki, hücuma məruz qalır. Ötən ilin sentyabr ayında Azərbaycanın Gürcüstandakı, Livandakı və Fransadakı səfirliklərinə hücum olub. Bir ay sonra Azərbaycanın Vaşinqtondakı səfirliyinin xidməti avtomobilinə atəş açılıb. Bu hücumları erməni radikalları və ermənilərin himayədarları təşkil etmişdisə, Londondakı səfirliyimizə hücuma görə məsuliyyəti radikal dini qrup öz üzərinə götürmüşdü. Cari ilin 27 yanvar tarixində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı həyata keçirilmiş terror hücumu nəticəsində səfirliyin mühafizə xidmətinin rəisi Orxan Əsgərov şəhid olub, iki əməkdaş Vasif Tağıyev və Mahir İmanov isə ağır dərəcəli bədən xəsarətləri alıblar.



Xatırladaq ki, erməni radikallar nəinki 44 günlük Vətən müharibəsindən sonra, hətta 30-40 il öncə də bu kimi hücumlar həyata keçiriblər, sui-qəsdlər törədiblər. Onlardan bir neçəsini xatırladaq: 1975-ci ildə 3 erməni terrorçu Türkiyənin Avstriyadakı səfiri Daniş Tunalıgili öldürdü, 1978-ci ildə Türkiyənin İspaniyadakı səfiri Zəki Kuneralpın maşını güllə atəşinə tutuldu, 1979-cu ildə Türkiyənin Fransadakı turizm müşaviri Yılmaz Çolpan öldürüldü, 1981-ci ildə Ankaranın Fransadakı səfirliyinin Mədəniyyət məsələləri üzrə attaşesinin binası ələ keçirildi, 56 diplomat əsir alındı, 1984-cü ildə Türkiyənin Avstriyadakı səfirliyinin attaşesi Ərdoğan Özen öldürüldü. Göründüyü kimi, ermənilər radikalizmi məhz diplomatlara qarşı hücumlarla aşkar şəkildə göstərirlər.

Son günlər baş vermiş hücumlar, habelə hələ 2020-ci ildə Avropa paytaxtlarında və Los-Anceles şəhərində Azərbaycan diplomatik nümayəndəliklərinə, həmçinin azərbaycanlı icma üzvlərinə qarşı edilən hücumlarla bağlı açılan cinayət işləri çərçivəsində heç bir təqsirkar məsuliyyətə cəlb edilməyib. Yəqin radikal erməni qrupları cəzasız qalacaqlarına əmin olduqları üçün bu kimi əməllərinə davam edirlər.

Bu gün dövlətimizin diqqət göstərdiyi məqam diplomatik korpuslarımızın mühafizəsidir. Azərbaycanda fəaliyyət göstərən səfirliklər ciddi şəkildə mühafizə olunsa da, bizim xarici ölkələrdəki səfirliklərimizin mühafizəsinin gücləndirilməsinə ehtiyac var.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Asim Mollazadə "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın diplomatik korpuslarını müdafiə etmək üçün müəyyən qruplar hazırlanmalıdır. O xatırlatdı ki, hər bir ölkə ərazisindəki diplomatik korpusları mühafizə etməlidir, bu, bir sıra beynəlxalq konvensiyalarda öz əksini tapıb: "Azərbaycanın Livandakı səfirliyinə hücuma görə bilavasitə Livan hökuməti məsuliyyət daşıyır. Biz Livanın üzr istəməsini, səfirliyin mühafizəsi ilə əlaqədar müəyyən addımların atılmasını gözləyirik. Xatırlatmaq yerinə düşər ki, dünyada erməni terrorçu şəbəkələrinin əsas mərkəzlərindən biri Livanda yerləşir. Onlar uzun illərdir digər terrorçularla birgə fəaliyyət göstərirlər. Qəribədir ki, erməni terrorçuları xristianlara qarşı vuruşurlar. Bu onu göstərir ki, Orta Şərqdə yerləşən erməni terrorçu şəbəkəsi vaxtilə KQB-nin dəstəyi ilə yaradılmışdı. Bu təşkilatlar dünyanın bir sıra ölkələrində ağır terror hücumları törətmişdilər (red: türkiyəli diplomatlara hücumlar nəzərdə tutulur). Onları susduran Bozqurd təşkilatı oldu. Orli beynəlxalq hava limanında 1983-cü ildə törədilmiş terror aktından dərhal sonra fransız polisi ASALA ilə əlaqəli olan 51 nəfəri həbs etmiş, onlardan 11 nəfəri dindirilmək üçün prokurorluğa gətirilmiş və 6 nəfərə terror aktının təşkili ilə bağlı ittiham irəli sürülmüşdü. Həbs olunan 6 nəfərin arasında terror aktının əsas təşkilatçısı və terrorçu dəstənin başçısı Suriya ermənisi olan Varujan Karapetyan da var idi. O, ömürlük cəza alsa da, 2002-ci ildə, yəni 17 illik həbsdən azad edilərək Ermənistana deportasiya edilmişdi. Dünyanın bir çox ölkəsinin zindanlarından çıxmış erməni terrorçular İrəvanda klub yaradıblar. Çox güman ki, bu terror şəbəkəsi fəaliyyətini daha da genişləndirəcək. Əminəm ki, terrorçular zərərsizləşdiriləcək. Bizi terrorla qorxuda bilməzlər. Səfirliklərimizə hücum edən terrorçular cəzalarını alacaqlar. Təkcə erməni terrorçuları deyil, onlara dəstək verən ölkələrin terrorçuları da bu prosesdə fəaldırlar. Bu şəbəkənin qarşısını almaq üçün beynəlxalq səylər artırılmalıdır. Terrorçuları yuvalarında məhv etmək lazımdır. Hazırda Xankəndində oturub milyardlarının hesabına Azərbaycana qarşı terror həyata keçirmək istəyən Vardanyan da layiqli cəzasını alacaq".

❑ **Nigar HƏSƏNLİ**
"Yeni Müsavat"

Kanada sərhədimizə atlı dəstə göndərir - Ottavanın yanlış Qafqaz siyasəti

Bu uzaq ölkə İrəvanda səfirlik açır, Avropa İttifaqının Ermənistandakı missiyasına qoşulur və Kral Atlı Polisini cəlb edir

Ermənistanın Rusiyadan üz döndərmək, özünə yeni müttəfiqlər və güclü himayədarlar axtarmaq cəhdləri təkcə Hindistanı deyil, regiondan uzaq başqa bir ölkəni - Kanadanı da özünə cəlb edir. Qərb mənbələri Kanadanın Cənubi Qafqazda diplomatik təsirini gücləndirmək üçün Ermənistana üz tutub. Belə ki, Kanadanın gələn ay İrəvanda səfirliyini açacağı gözlənilir.

Ölkənin xarici işlər naziri Melani Colinin Ermənistana səfəri planlaşdırılır. Kanada həm də Avropa İttifaqının (Aİ) Ermənistan Sərhədində Monitorinq Missiyasına (EUMA) qoşulan üç ölkə arasında birincidir. Rəsmi Ottava monitorinq aparmaq üçün Ermənistan sərhədinə öz müşahidəçilərini göndərəcək. Vəziyyətlə tanış olan mənbələr bildiriblər ki, bu müşahidəçilər Kral Atlı Polisindən cəlb olunacaqlar.

Melana Coli avqustun 18-20-də Monrealda keçirilən erməni diasporunun illik festivalında çıxış edərək, Kanadanın Qarabağ erməniləri ilə bağlı məsələlərin həllində fəal rol oynayacağını bəyan edib. "Ermənilər Artsaxda real təhlükə ilə üz-üzədir", - deyə Coli erməni auditoriyasına bildirib və onun hökumətinin Cənubi Qafqazda baş verən proseslərə fəal şəkildə müdaxilə edəcəyinə eyham vurub. Nazirin çıxışında ermənilərin Azərbaycan ərazilərinin bir hissəsinə verdiyi addan istifadə etməsi təbii ki, Kanada ermənilərinin xoşuna gəlib. Lakin Azərbaycanın belə bəyanatlara nə qədər sərt reaksiya verdiyi məlumdur.



Qeyd edək ki, Kanada heç vaxt dünya siyasətində müstəqil geosiyasi oyunçu sayılmayıb. Bu münasibətlə "Toronto Star" qəzeti yazır ki, Kanadanın xarici siyasətinin "rəhbər ulduzu" ABŞ-dır və əgər Vaşinqton Ottavadan müxtəlif anti-Rusiya və ya Çin əleyhinə təşəbbüslərə qoşulmağı xahiş etsə, belə də olur. Bu baxımdan, Kanadanın Ermənistan vasitəsilə regiona daxil olmaqla Cənubi Qafqazda öz təsirini gücləndirmək planları, şübhəsiz ki, Qərbin, xüsusən də ABŞ-ın Rusiyaya qarşı kollektiv siyasətinə uyğun gəlir. Qərb Ermənistanda itirilmiş mövqelərini bərpa etməyə çalışır. Cənubi Qafqaz Rusiyanın əsas potensialı olmasından istifadə edərək Ukrayna ilə müharibəyə yönəldildi və bu da onun Ermənistanda təsirinin zəifləməsinə səbəb oldu. Məhz buna görə də Vaşinqton və Brüssel Ermənistanla Azərbaycan arasında sülhə nail olmaq üçün fəal əməkdaşlıq edirlər. Bu təşəbbüslərə aqressiv reaksiya verən rəsmi Moskva bəyan edir ki, Qərbin əsl məqsədi Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaqdır. Əgər Kanada ABŞ-ın regionda sülhün əldə olunmasına yönəlmiş diplomatik təşəbbüslərini gücləndirmək istəyirsə, eyni zamanda burada nüfuz qazanmağa çalışırsa, o zaman bunu erməni diasporuna sığınaraq edə bilməz. Ottava Bakının maraqlarını nəzərə almalıdır, əks halda, Ermənistan-Azərbaycan sərhədinə göndərilən bədnam atlı polisin köməyi ilə ciddi geosiyasi məqsədlərə nail olmaq mümkün olmayacaq.

Politoloq Murad Sadəddinovun "Yeni Müsavat"a dediyinə görə, Kanadanın bölgədə fəallaşmasının bir neçə faktoru var. Onun fikrincə, birincisi, Kanadanın Fransa ilə gizli anlaşması var. Ekspert ikinci detal olaraq Fransanın təsiri altında olan bir dövlət kimi Türkiyəyə qarşı siyasəti göstərir: "44 günlük müharibə vaxtı Kanada Türkiyəyə sanksiya tətbiq etmişdi. "Bayraktar"ın optik sistemlərini onlar satırdılar, buna qadağa qoymuşdular. Yəni Kanada Fransanın diktəsi ilə hərəkət edir. Digər səbəb isə Rusiyaya qarşı plandır. Yəni rusların Cənubi Qafqazdan çıxarmaq səylərinə qoşulub. Bir sözlə, anti-Türkiyə və anti-Rusiya cəbhəsində iştirak edir". **Ekspertin sözlərinə görə, Rusiya Paşinyan hakimiyyətini devirmək istəyir və bu da Fransa, Kanada, ABŞ kimi ölkələri narahat edir:** "Moskva İrəvanda iqtidara ruspərəst siyasətçini gətirmək istəyir. Qərb də Nikolu müdafiə edir. Rusiyanın regionda zəifləməsinə və bölgədən çıxarılmasına gəlincə, Ukrayna müharibəsinin nəticələrindən asılı olacaq. Əgər məğlub olacaqsa, təkcə Cənubi Qafqazı yox, digər təsir dairələrini də itirmiş olacaq".

Bu arada, Qərbi Azərbaycan İcması Kanadanın xarici işlər nazirinin növbəti anti-Azərbaycan açıqlamasını, Azərbaycanın suveren ərazilərinə münasibətdə qondarma, əcaib addan istifadə etməsini kəskin şəkildə pisləyib. "Davamlı olaraq Azərbaycan əleyhinə mövqe sərgiləyən, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləməsinə və onların öz evlərinə qayıtmasına imkan verməməsinə göz yuman kanadalı nazir nədənsə Azərbaycanın beynəlxalq hüquqa uyğun şəkildə atdığı legitim addımlardan xoflanır və ölkələrin suverenliyi və ərazi bütövlüyünə münasibətdə ikili standartlar yanaşmasından çıxış edir. Xanım nazirə xatırladırıq ki, tarixi yerli xalqlara qarşı ədalətsizliklər, ayrı-seçkiliklərlə dolu olan, vaxtilə BMT-nin yerli xalqların hüquqları haqqında bəyannaməsinə qarşı çıxmış çox az sayda ölkələrdən biri olan Kanada Azərbaycana qarşı ittihamlar səsləndirmək üçün mənəvi hüququnu çoxdan itirib. Kanadalı nazirin erməni icmasını məmnun etmək üçün düşdüyü acınacaqlı vəziyyətə acıyır və onun Azərbaycana qarşı qondarma açıqlamalarını rədd edirik" - bəyanatda deyilir.

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"



Türkün çörəyi

Zamin HACI
zaminhaci@gmail.com

"Acın imanı, toxun amanı, qanmazın dərmanı olmaz"

(Azərbaycan ata sözü)

Əski günlərdə sentyabrın 1-ni biz məktəblərdə "Bilik günü" kimi qeyd edərdik, bu gün dərslər açılmasa da, yenə bəzi vətəndaşlarımızın bilgilərə ehtiyacı yaranıbdır. Xüsusilə Qarabağda yaşayan erməni zəhmətkeşlərimizə aiddir. Ümid edirəm bu yazı hansısa yolla onların əlinə keçər, bir az savadlanarlar. Yoxsa qəzəb, kin gözlərini örtüb, elə hey qışqırırlar. Ya da ağlaşırlar. Qışqırmaq və ağlaşmaqdan isə bəşəriyətə heç vaxt xeyir gəlməyibdir. Bunu görkəmli şairimiz hələ yüz il qabaq öz əsərində qeyd edibdir: "Ağladıqca kişi qeyrətsiz olur, Necə ki, ağladı İran oldu".

Bu uzun girişdən sonra dərhal keçək mətləbə. Son günlər Qarabağ ermənilərinin guya aclıq çəkməsi beynəlxalq səviyyəli hoqqabazlığa çevrilib, Çarlz Hayderin məşhur aclıq aksiyasını xatırladır. 1986-cı ildə bu amerikalının Vaşinqtonda, Ağ Evin qabağında keçirdiyi aclıq aksiyasını SSRİ-nin bütün televiziya və qəzetləri az qala canlı yayımla göstərərdilər. Yadımda deyil nəyə etiraz edirdi, deyəsən, nüvə silahlanmasına qarşıydı. Lakin insan nə qədər ac qala bilər? Hayderin aclığı isə nə az, nə çox - 218 gün çəkmişdi. Təbii ki, bu da aksiyanı müəyyən dərəcədə anekdota çevirmişdi. İndi qarabağlı ermənilərimizin "aclığı" da bir-iki aya il olacaqdır.

Azərbaycan onların bəhanəsini kəsmək üçün Ağdam yoluyla un maşınları göndərib, lakin qəbul etmirlər. "Biz türk çörəyi yemək istəmirik!" - şüarları bu cürdür.

Açığı, məsələnin bu cür qoyuluşu çağdaş dünyada idiotluq əlamətidir. Qloballaşma zamanı kimin hansı çörəyi yediyini müəyyən etmək çətindir. Üstəlik, ac adamın çörəyə bu cür fəlsəfi-etnik məna yükləməsi maraqlıdır, şübhəlidir. Əsl ac ilan-qurbağa da yeyir, heç "milliyətinə" baxmır.

Lakin biz hesab edək bunlar da belə dəlidir, neynək, öz camaatımızdır, birtəhər yola verməliyik. Sadəcə, söhbət ondan gedir ki, Qafqazda yaşayan ermənilər - həm Qarabağdakı, həm Ermənistandakı - tarixən türk çörəyi yeyiblər! Nə oldu, əvvəl yeyəndə dadlıydı, indi, bərəkətindən uzaq, "pxi" oldu?

Qafqazda taxıl, buğda yetişdirməklə əsasən türklər məşğul olublar. Ermənilərin işi heyvandarlıq, üzümçülük, şərabçılıq, xırda ticarət, məişət sənətkarlığı olub. Bunun əsas səbəbi həm də təbiətdir, relyefdir. Qarabağın dağlıq hissəsində, həmçinin bütün dağ-dərədən ibarət Ermənistanda buğdanı, taxılı harada əkmək mümkündür? Cüzi yamaclarda, yağış umduna... O da dəqiqədə dolu vurur, sel gəlir, nə bilim, daha nələr olur.

Boşboğazlıq kimi görünməsin deyə, bir-iki rəqəm yazıram.

Ermənistanın 2022-ci ildə taxıl istehsalı 240 min ton olub. Bunun 130 mini buğdadır, qalanı arpa-filandır. Füzuli rayonu 2020-ci iləcən - böyük ərazisi işğal altında olanda ildə 100 min tondan çox taxıl yetişdirirdi. (Azərbaycanda hərəsi 100 min tondan çox taxıl verən 6 rayon var). Yəni Füzulinin cəmi 22 kəndi bizdə olanda yetişdirdiyi taxıl cəmi Ermənistanın taxılının yarısı qədər idi.

Və işğal altında olan ərazilərimizin çörəyini 30 il idi ermənilər yeyirdilər. Bunu özləri də gizlətmirdilər, 44 günlük savaşdan sonra "buğda sahələrimiz əldən getdi" deyə ağlaşma qurmuşdular. Heç sağ ol da demirdilər. O zaman Füzulinin, Cəbrayılın, Ağdamın bərəkətli, qara torpaqlarında yetişən çörək, görəsən, "türkün çörəyi" deyildimi? Davam edək.

Azərbaycanın illik taxıl istehsalı 2 milyon tona yaxındır. Bununla biz çörəyə, una olan ehtiyacımızın 60 faizə qədərini ödəyirik. Ermənistanda bu faiz güclə 24-ə çatır. Yəni ikimiz də "rus, ukrain, qazax və sairə çörəyi" yeyirik, sadəcə, ermənilər başqasının çörəyini bizdən iki-üç dəfə çox yeyir.

1988-ci ildə bütün Dağlıq Qarabağ Muxtar Vilayətində 104 min ton taxıl yığılıb. Yuxarıda yazdığım kimi, bu, Füzulinin 22 kəndinin məhsulu qədərdir.

Ümumiyyətlə, Qarabağ ermənilərinin şərab, baramaçılıq, heyvandarlıq kimi guya fərqləndikləri sahələrdə istehsal üzrə də fərli göstəricilərə malik deyil. Məsələn, həmin 1980-ci illərdə cəmi DQMV ildə 75 min ton (1988) üzüm yığırdı. Təkcə Cəlilabad rayonu 277 min ton üzüm yığan zaman. Ta başqa rayonları saymıram.

Lap o 277 minin 100 minini "pripiskaya" yazaq. Yenə çox eləyir.

Ona görə də Qarabağ ermənilərinin şərab, ipək üzrə sənaye müəssisələri xammalı ətraf rayonlardan - Ağdamdan, Füzulidən, Bərdədən alırdılar.

Türk çörəyi halal çörəkdir. Utanmadan yemək olar.



Xankəndidə "Rus ruletkası".

Bordovun "son gülləsi" özünə qaldı...

Üzdəniraq FTX agenti "artsax uğrunda" mübarizəyə çağırır; **AMİP sədri:** "Başına torba keçirib Bakıya gətirməliyik"

Xankəndidəki "mədəniyyət və gənclər sarayı"nda Yuxarı Qarabağdakı qondarma "rus icması" nümayəndələrinin görüşü keçirilib. "Yeni Müsavat" bildirir ki, Rusiya Federal Təhlükəsizlik Xidmətinin agenti, Yuxarı Qarabağdakı rezidenti olduğu haqda davamlı məlumatlar yayılan "rus icması"nın rəhbəri Aleksandr Bordov tikilmiş rus pravoslav kilsədəki "ruhani ata"nın xeyir - dua və çıxışları ilə başlayıb.

Bordov qeyd edib ki, "dağlıq qarabağ respublikası bu gün çətin vəziyyətdədir və yalnız artsax xalqına xas olan ruhun gücü və dözümü onlara bu sınaqlardan aylardır şərəflə çıxmağa imkan verir..."

"Təbii ki, biz xatırlayırıq ki, babalarımıza, atalarımıza da asan olmayıb, çünki müqəddəs Qarabağ torpağının bütün tarixi boyu əcdadlarımızın torpağında azadlıq, yaşamaq hüququmuz uğrunda mübarizə aparmışıq", - deyə A.Bordov çərənləyib. "Rus icması"nın başçısı Ermənistan-Rusiya münasibətlərinə, bu kontekstdə Rusiyanın Qarabağdakı "mövcudluğunun tarixinə də istinad edib". FTX agentinin sözlərinə görə, əsrlər boyu ermənilərlə ruslar arasında mənəvi bağlar yaranıb ki, bu da hər iki xalq, ölkələr və inanc naminə möhkəm müttəfiqlik münasibətlərinin qurulmasının zəruriliyindən xəbər verir. Üzdəniraq natiqin sözlərinə görə, "həm artsax xalqı, həm də Rusiya sülhməramlıları çətin, faktiki böhran vəziyyətinə düşüblər... Aydındır ki, bu gün biz barrikadaların eyni tərəfində olmalıyıq", - deyə "rus icması"nın rəhbəri əminliyini ifadə edib.

"Bizim Azərbaycan əhalisinə qarşı qətiyyən heç bir iddiamız yoxdur, lakin biz üçtərəfli bəyannamənin əksinə olaraq, 206 gündür davam edən blokadanın və Azərbaycanın hərbi-siyasi rəhbərliyinin Qarabağ torpağında həyata keçirdiyi əməliyyatların əleyhinəyik. Bütün bunlar, eləcə də Sumqayıtda, Bakıda, Dağlıq Qarabağda erməni əhaliyə qarşı amansız cinayətlərin törədildiyi faciəli hadisələrin tarixi yaddaşı yaradılmış şəraitdə artsaxın Azərbaycanın tərkibində olmasının, birgə yaşamağın mümkünsüzlüyünü diktə edir. İtkilərin yaraları çox ağırdır", - deyə FTX rezidenti təxribatçı çıxışında vurğulayıb.

Sonda Putin rejiminin nümayəndəsi "təhlükəsiz və firavan bir artsaxa sahib olmaq uğrunda" mübarizəyə çağırıb. Belə görünür ki, Bordov da "rus ruletkası"nın sonunun gəldiyinin fərqindədir və indi sonuncu "patronu" qalıb. "Azərbaycan hökuməti Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Xankəndi şəhərində yaşayan erməniəsilli vətəndaşları ilə dinc dialoqun aparılması üçün böyük səylər göstərdiyi halda, bir qrup separatçı əsassız bəyanatlar və dünya ictimaiyyətinə yanlış məlumatlar verməklə buna mane olmaqda davam edir.

Bu barədə Azərbaycanın Rus İcması Respublika Şurasının Qarabağ bölgəsinin "saxta rus icması"nın siyasi kart oynamaq cəhdinə münasibət bildirdiyi bəyanatda bildirilir.

Sənəddə deyilir ki, özlərini "rus icması" kimi təqdim edənlərin bəyanatları Azərbaycan Konstitusiyasının normalarına tamamilə ziddir: "Qarabağ iqtisadi rayonunun erməni əsilli sakinləri Azərbaycan Respublikasının vətəndaşlarıdır və ölkəmizin rəsmi qanunlarına uyğun yaşamalıdırlar. Azərbaycanda 1993-cü ildə Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmış və bu gün bir rus icması var. Sayı 120 min nəfərdən çoxdur. Təşkilatımız bütün beynəlxalq strukturlar tərəfindən tanınır və 30 ildir fəaliyyət göstərir. Əgər Qarabağ sakinləri arasında Azərbaycanın rus icmasına qoşulmaq istəyən etnik ruslar varsa, o zaman təşkilata üzv olmaq üçün bizə müraciət etsinlər. Biz onların müraciətlərinə cavab verməyə və bunun üçün bütün lazımi məlumatları təqdim etməyə hazırıq", - bəyanatda qeyd olunur.

"Rus icması" öz bəyanatında Qarabağdan öz əcdadlarının tarixi torpağı kimi danışır. Qarabağ həmişə Azərbaycanın bir parçası olub və belə də qalacaq.

Sonda Azərbaycanın rus icması bu cür bəyanatları regionda sabitliyi pozmaq, dünya ictimaiyyətinə yanlış məlumat vermək və Qarabağ ermənilərinin çoxmillətli, multikultural Azərbaycan cəmiyyətinə inteqrasiya prosesini ləngitmək cəhdi hesab edir.

Bəs niyə bu dələduz oradan uzaqlaşdırılmır, FTX daha nə qədər onu himayə edəcək?

Ümumiyyətlə, Bordovun əcdad menyusu üçün onu da deyək ki, rəhbərlik etdiyi icma ilə bağlı məlumatda Qarabağ ərazisindəki rus kilsəsinin 1868-ci ildə inşa olunduğu və çar II Aleksandrın onun açılışında iştirak üçün Xankəndiyə gəldiyi yazılıb. Yeri gəlmişkən, həmin məlumatda Xankəndinin 1923-cü ildən sonra Stepanakert adlandırıldığı da qeyd edilib. Bu da ermənilərin əcdad qədimliyinin "təsdiqi". Gülməlidir ki, Qarabağdakı qondarma "rus icması"nın rəhbəri rus deyil, milliyyətcə ermənidir. Digər bir məsələ odur ki, Rusiya sülhməramlıları Qarabağda yerləşdirildikdən sonra dəfələrlə həmin ərazilərdə erməni əhali üçün yardım kampaniyaları keçirilib, ərzaq və su daşınıb, bayramlarda uşaqlara müxtəlif hədiyyələr paylanıb. Amma bu sadalanan əməllər onların missiyasına daxil deyil. Digər tərəfdən, 10 noyabr üçtərəfli bəyanatının 4-cü bəndinin icra olunmaması Rusiyanın bəd niyyətlərinin olduğundan xəbər verirdi. Həmin bənddə qeyd olunub ki, Rusiya sülhməramlılarının Qarabağa daxil olmasına paralel olaraq, erməni silahlı birləşmələri bölgəni tərk etməlidir.

AMİP sədri Arzuxan Əlizadə "Yeni Müsavat"a açıqlamasında Rusiyanın Qarabağdakı özbaşınalıqlarına sərt reaksiya verdi. Partiya sədri dedi ki, Azərbaycan konkret addımlar atmalıdır: "Ağdam-Xankəndi yolunda barrikadaların qurulmasında Ruben Vardanyanın adamları iştirak edir. Onun da "rus desantı" olması sirr deyil. Paralel də rus agenti Bordov peyda olur və çağırışlar edir. Hər iki hadisə sinxronluq təşkil edir və eyni mərkəzdən idarə olunur. Azərbaycanda rus icmasının rəhbəri olan deputat Mixail Zabelin isə səsini çıxarmır. Ümumiyyətlə, rusların bu hərəkətlərinə sərt xəbərdarlıq edilməlidir. Biz onların nazı ilə oynamalı deyilik. Bu qədər bəs edir. Biz separatçıların liderlərinin və Rusiyanın Qarabağdakı agenturasının başına torba keçirib Bakıya gətirməliyik". **A.Əlizadə qeyd etdi ki, Rusiya Priqojinin təyyarəsini vurur, Ukraynanı yerlə-yeksan edir, Qarabağda min oyundan çıxır, Yekaterinburqda əleyhimizə toplantılara şərait yaradır, yəni dünyaya meydan oxuyur:** "Ona görə də Azərbaycan ərazilərində Rusiyanın bu hoqqalarına göz yummaq olmaz. Bordov kimilər də Moskvanın təlimatı ilə hərəkət edirlər. Nəticə budur ki, torpaqlarımızın bir hissəsi rus-erməni işğalı altındadır, buna son qoymalıyıq. Çünki Qarabağda ruslar yaşamır, icmaya ehtiyac yoxdur".

❑ Emil SALAMOĞLU
"Yeni Müsavat"



"Çörəyi dizi üstə" olanlar... Ağdam yolunda üçüncü gün

Yüklər qəbul edilənə qədər Xankəndinə gedən yolda durmağa davam edəcəklər, **PA rəsmisi:** "Azərbaycan artıq öz torpağında "boz" nəzarətsiz zonaya dözüm göstərə bilməz"

Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) tərəfindən Qarabağda yaşayan erməni əsilli sakinlər üçün 40 ton un son üç gündə Rusiya sülhməramlılarının məsuliyyət zonası olan Ağdam-Xankəndi yolundakı postda gözləyir.

"Ağdam-Xankəndi yolu bağlı qalacaq, qərar yekdilliklə qəbul edilib". Qondarma rejimin "parlament"inin sədri David İşxanyan mətbuat konfransında belə açıqlama verib. Onun sözlərinə görə, Ağdam-Xankəndi yolunda Rusiya sülhməramlılarının müvafiq nəzarət-buraxılış məntəqəsi qurulub, post-patrul xidmətinin müvafiq məntəqəsi də var. "İctimaiyyətimizə və bütövlükdə dünyaya çatdıra bilərəm ki, bəli, bu yolun bağlı saxlanılması, istifadə edilməməsi ilə bağlı dəqiq qərar var. Cəmiyyətimiz bu məsələyə inamsızlıq və fərqli şərhlər verməyə meyilli olmamalıdır", - İşxanyan belə deyib.

Beləliklə, Qarabağdakı ermənilər Azərbaycanın göndərdiyi humanitar yardımı qəbul etməkdən faktiki imtina edib. İndi nəzərlər rəsmi Bakının atacağı addımlara yönəlib.

Azərbaycan isə hələ ki diplomatik-siyasi müstəvidə mübarizəsini davam etdirir. Avqustun 31-də Azərbaycanda akkreditə olunan diplomatik korpusun nümayəndələri və hərbi attaşelərin Ağdam-Xankəndi yoluna tanışlıq səfəri həyata keçirilib. Səfərə 50-dən artıq ölkə və beynəlxalq təşkilatdan 60-a yaxın şəxs, o cümlədən Türkiyə, Çin, Rusiya, Yaponiya, İsveçrə, Polşa, Çexiya, Bolqarıstan, Rumıniya, Serbiya, Argentina, Kolumbiya, Meksika, Cənubi Koreya, İndoneziya, İsrail, Birləşmiş Ərəb Əmirlikləri, Əlcəzair, Qətər, İraq, İran, Əfqanıstan, Liviya, Fələstin, Ukrayna, Qazaxstan, Özbəkistan, Belarus, Gürcüstan, Tacikistan və digər ölkələrin, Birləşmiş Millətlər Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, TÜRKPA və s. beynəlxalq təşkilatların təmsilçiləri, habelə xarici jurnalistlər iştirak ediblər.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də diplomatik korpus təmsilçiləri ilə birgə AzQAC-ın ərzaq yüklərinin yerləşdiyi məntəqəyə gəlib.

Hikmət Hacıyev Ağdam-Xankəndi yolunda mediaya olduqca maraqlı və Azərbaycanın mövqeyinin nədən ibarət olduğunu nümayiş etdirən açıqlamalar verib. O bildirib ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Aypara və Qızıl Xaç Komitələri və Cəmiyyətləri Federasiyasının tərkib hissəsidir: "Qızıl Aypara Cəmiyyəti Azərbaycan ərazisində mütləq mandata və fəaliyyətə və səlahiyyətə malik olan bir təşkilatdır. Buna görə də ölkəmiz ərazisində həyata keçirilən bu qəbildən olan tədbirlər mütləq şəkildə Qızıl Aypara Cəmiyyəti ilə koordinasiya olunmalıdır. Qızıl Aypara Cəmiyyəti bu xoş niyyətin ilk və vacib təzahürünün addımı olaraq bu yükləri təqdim etmişdir. Yüklər qəbul edilənə qədər burada durmağa davam edəcəklər. Əgər Xankəndidə yaşayan sakinlərin mühüm tələbatları varsa, bu tələbatların ödənilməsi üçün ərzaq yükləri təqdim edilib. Bu yüklərin qəbul edilməməsinin məsuliyyəti tam şəkildə qondarma rejimin nümayəndələri və həmin qondarma rejimin dırnaqarası prezidentinin, yaxud digər rəhbər şəxslər kimi özünü təqdim edənlərin üzərinə düşür. Həmin adamlar orada yaşayan sadə insanları əsarət altında saxlayırlar. Bu insanlar da nəhayət, bu reallığı dərk etməlidirlər ki, onların əsl düşməni qondarma rejimin rəhbərliyində və Ermənistan siyasətində olan bəzi şəxslərdir".

H.Hacıyev bəyan edib ki, Azərbaycan Respublikası ərazisində hər hansı bir yolun bağlı olması konsepsiyası Azərbaycan üçün qəbul deyil. Ölkəmizin suveren ərazisində bütün yollar açıq olmalıdır, yolların da hərəkət fəaliyyəti müstəsna qanun çərçivəsində olan hallar istisna olmaqla: "Qondarma rejimin nümayəndələrinin öz aləmlərində bu yolları bağlı saxlamaları və bunun əsnasında da özlərini, öz qanunsuz mövcudluqlarını təmin edəcək bir yanaşma kimi görmələri bizim üçün qəbuledilməzdir. Azərbaycanın yanaşması ondan ibarət idi ki, Ağdam-Xankəndi yolunun açılması, hansı ki bu yolun mövcudluğu ilə, bu yolun vacibliyi və funksionallığı da müvafiq beynəlxalq bəyanatlarda öz təsvirini tapıb. Onu da qeyd edim ki, Ermənistan 30 il ərzində işğal və təcavüz faktının tərkib hissəsi olaraq, Azərbaycanın gömrük rejimini pozub, özü idxal etdiyi məhsullara gömrük rüsumları tətbiq edib, ondan böyük məbləğdə vəsaitlər qazanaraq Azərbaycan büdcəsinə ciddi şəkildə zərər vurub və bu məhsulların Azərbaycan ərazisinə idxalını təmin edib. Bunun özünün də ayrıca qiymətləndirilməsi aparılmalıdır. Bu, Ermənistan tərəfindən Azərbaycana ödənilməli olan ayrıca təzminat mövzusudur. Düşünürük ki, bu da ayrıca hüquqi müstəvilərdə həll olunacaq məsələdir".

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycanın sərhədləri daxilində, Azərbaycanın mərkəzi hökumətinin nəzarətindən kənar hər hansı bir ərazinin mövcud olması qəbuledilməzdir: "Azərbaycan xoşməramlı niyyət göstərərək reinteqrasiya prosesi ilə əlaqədar öz fikirlərini təqdim edib, amma bundan imtinaya görə də məsuliyyət tam şəkildə qondarma rejimi təmsil edən müharibə cinayətkarlarının üzərinə düşür. Orada yaşayan sadə erməni sakinləri də bilavasitə həmin rejimin nümayəndələrinin, bu qanunsuz hərbi xuntanın əsarəti altındadır və onlar öz mövcudluqlarını məhz bu kimi aqressiv ritorika ilə, müharibə ritorikası ilə əsaslandırmağa çalışırlar. Gördüyünüz kimi, bunların heç bir əsası da yoxdur. Yüklər buradadır və bu yüklərin ən tez zamanda çatdırılması təmin oluna bilər. Gələcəkdə də hər hansı yüklərin daşınması üçün Ağdam-Xankəndi yolu bütün texniki imkanlara malikdir. Təkar qeyd etmək istərdik ki, Azərbaycan tərəfi Qarabağın erməni sakinlərinin nümayəndələrini təmaslara və dialoqa da dəvət etmişdir ki, reinteqrasiya ilə əlaqədar bütün məsələlər müzakirə olunsun. Ona görə də bir daha diplomatik korpusun nümayəndələrinə təşəkkür edirik ki, onlar bu hadisələri öz gözləri görürlər və onlar eyni zamanda bu faktları öz ölkələrinin aidiyyəti orqanlarına çatdıracaqlar. Bu ermənilərin və onların bəzi havadarlarının yaratdığı və yaratmağa çalışdığı yalan mühitinin növbəti darmadağın edilməsi faktıdır".

H.Hacıyev bəyan edib ki, Azərbaycan öz ərazisində hər hansısa bir boz zonanın olmasını qəbul etməyəcək. Kimlərsə düşünürsə ki, onlar mövcud şəraiti olduğu kimi davam etdirəcəklər və separatist statusunda yaşamaqda davam edərək bu qeyri-qanuni rejimin mövcudluğunu təmin edəcəklər, bütün bunların heç biri baş verməyəcək: "Azərbaycan heç bir halda buna dözüm göstərməyəcək. Azərbaycan artıq öz torpağında nəzarətsiz zonaya tolerantlıq göstərə bilməz. Qanunsuz rejim buraxılmalı və tərk-silah edilməlidir.

Onların yalançı humanitar şousunun əsas məqsədi ondan ibarətdir ki, əsl niyyətlərini, xislətlərini gizlətsinlər. Əsl niyyət isə Ermənistanın vaxtilə Azərbaycanın işğal altında olan ərazilərində yaratdığı qondarma, qanunsuz rejimin mövcudluğunun yaşamasını təmin etməkdir. Azərbaycanın Qızıl Aypara Cəmiyyəti tərəfindən ərzaq yüklərinin Ağdam-Xankəndi yolunun Əsgəran yolu ilə birləşmə məntəqəsinə gətirilməsi təmin olunub. Onlar yenə də rasizm siyasətinin bariz nümunəsi olaraq, bu məmulatların qəbul edilməsinə qarşı çıxırlar. Bu da o deməkdir ki, burada məqsəd reinteqrasiyaya yox demək, qanunsuz statusu saxlamaq və proseslərdən siyasi manipulyasiya məqsədilə istifadə etməkdir".

H.Hacıyev Laçın yolu ilə bağlı da son günlər baş verənlərə münasibət bildirib. O deyib ki, Ermənistan Azərbaycanla razılaşdırmadan populizm məqsədilə müxtəlif yük maşınlarını Azərbaycan sərhədinə - Laçın sərhəd-keçid məntəqəsinə gətirib. Avqustun 30-da bəzi erməni lobbisinin tərəfdarı və təsiri altında olan korrupsioner Avropa siyasətçiləri də bu teatr xarakteri daşıyan dramanın tərkib hissəsi olaraq Azərbaycan sərhədinə doğru gəliblər: "Bu kimi addımların heç bir mənası yoxdur. Bu kimi şou xarakterli addımlardansa, real məsələləri yerində həll etmək lazımdır. Azərbaycan öz ərazisində hər hansı bir boz zonanın olmasını qəbul etməyəcək. Azərbaycan yolları açaraq reinteqrasiya prosesini başlatmaq niyyətindədir. Bu prosesin tərkib hissəsi olaraq, Azərbaycan Qarabağda yaşayan erməni sakinlərin hüquqlarını, təhlükəsizliyini və öhdəliklərini Azərbaycan Konstitusiyası və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq sənədlər əsasında təmin etməyə hazırdır. Amma görürük ki, yol mövzusunu məqsədyönlü şəkildə erməni tərəfi siyasi spekulyasiya və siyasi manipulyasiya mövzusuna çeviriblər. Əgər kimlərsə ki, düşünürlər o yol vasitəsi ilə mina, silah daşıyacaq, bildirmək istəyirik ki, onların erası başa çatıb".

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 154 (8290) 1 sentyabr 2023



Şəhid xanımı və oğlu tələbə adı aldı

Bakalavriat səviyyəsi üzrə ali təhsil müəssisələrinə aparılan ixtisas seçimi müsabiqəsinin nəticələri açıqlanıb.

Ali məktəbə qəbul olanlar arasında Vətən müharibəsi şəhidi polkovnik-leytenant Nail Orucovun həyat yoldaşı və oğlu da var. Şəhidimizin oğlu Orucov Əlihəsən Nail oğlu Memarlıq və İnşaat Universitetinə, xanımı Ağamalıyeva Nigar isə Bakı Dövlət Universitetinə daxil olub. Nail Orucov oktyabrın 31-də Qubadlı döyüşləri zamanı şəhid olub, Astara rayonunda dəfn olunub.

Prezidentin sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı, "Azərbaycan Bayrağı" , "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Vətən müharibəsi şəhidi Zeynal Zülfüqarlının xanımı Firuzə Zülfüqarlı da universitetə qəbul olanlar arasındadır. O, Xəzər Universitetinə qəbul olub. Şəhidimizin xanımı Riyaziyyat və İnformatika müəllimliyi ixtisasında təhsil alacaq.

Qeyd edək ki, Zeynal Alim oğlu Zülfüqarlı 1995-ci il mayın 31-də Şirvan şəhərində anadan olub. Azərbaycan Dövlət Dəniz Akademiyasında təhsil alıb. Sentyabrın 27-də Vətən müharibəsinə yollanıb. Cəbrayıl, Füzuli, Xocavənd və Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Oktyabrın 20-də Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Şirvan şəhər Şəhidlər Xiyabanında dəfn olunub.



Nazir sertifikasiyada yüksək bal toplayan şəhid anası ilə görüşdü

Sertifikasiya imtahanında yüksək bal toplayan müəllimlərdən biri də Zaqatala rayonunun Aşağı Tala kənd 3 nömrəli tam orta məktəbinin ibtidai sinif müəllimi Südabə Qazıyevadır. Mümkün 60 baldan 59 bal toplayan müəllim Vətən müharibəsi Qəhrəmanı, şəhid Valeh Bədəlovun anasıdır.

Təhsil naziri Emin Əmrullayev Zaqatalaya səfər zamanı Südabə Qazıyeva ilə görüşüb. "Görüş zamanı müəllimlərin sertifikatlaşdırılması imtahanının nəticələri və rayonda təhsilin keyfiyyəti barədə fikir mübadiləsi apardıq", - nazir paylaşımda bildirib.

Südabə Qazıyeva Modern.az-a açıqlamasında deyib ki, şəhid övladı da müəllimlik ixtisasını bitirmişdi: "Oğlum da müəllimlik ixtisasını oxumuşdu. Qafqaz Universitetinin məzunu idi".

Müəllim nazirlə görüşündən danışıb. O, görüşün onda müsbət təəssüratlar yaratdığını bildirib. "Gözləmirdim, xəbərim yox idi. Səhər zəng gəldi. Nazir 1 saat ərzində gəldi, bizimlə görüşdü. Bir insan kimi çox gözəl təəssürat oyatdı məndə. Təhsil üçün də gözəl planları var. Sadə, səmimi bir insanla görüşdük, təhsil barədə söhbət etdik. Rayon təhsili, respublika təhsili, baş verən yeniliklər, setifikatlaşdırma, nazirin görəcəyi işlər, gələcək planlar haqqında müzakirələr etdik. Oğlum haqqında da danışdıq", - o qeyd edib.

Qeyd edək ki, "Vətən müharibəsi qəhrəmanı" fəxri adı ilə təltif olunmuş şəhid Valeh Bədəlov Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı idi. O, 10 oktyabr 1990-cı ildə Zaqatalanın Aşağı Tala kəndində anadan olub. Ailənin böyük və tək oğlan övladı idi.

Bu universitetlərdə boş yer qalmayıb

Ali məktəblərə qəbul planı 93.94 % dolub

Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinə qəbulun nəticələrinə dair bəzi statistik məlumatları (I mərhələdən sonra) açıqlayıb.



Mərkəzdən verilən məlumata görə, müsabiqənin nəticələrinə əsasən 51 941 nəfər (o cümlədən 6592 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub.

24 594 (o cümlədən 1389 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 27347 (o cümlədən 5203 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. Ali təhsil müəssisələrinin qəbul planı 93.94% dolub. Sentyabrın 5-dən 14-dək boş qalan plan yerlərinə ixtisas seçimi aparılacaq və göstəricilər bir qədər də yüksələcəkdir.

Qeyd olunan rəqəmləri ötən ilin müvafiq məlumatları (I mərhələdən sonra qəbulun nəticələri) ilə müqayisə etsək, bu il tələbə adını qazananların sayının daha da artmasını müşahidə edə bilərik. Ötən ilə nisbətən bu il tələbə olanların sayı 3100 nəfər çoxdur. Bu il dövlət sifarişi əsasında qəbul olunanların sayı da ötənilki göstəricidən 1550 nəfər çoxdur.

Ümumiyyətlə, son illər qəbul planında dövlət sifarişli yerlərin sayının artırılması nəticəsində ödənişsiz oxumaq imkanı əldə edən tələbələrin sayı çoxalmaqda davam edir. Bu il ötən illə müqayisədə dövlət sifarişi üzrə 12.27% daha çox plan yeri ayrılmışdı. İxtisas qrupları üzrə ayrılıqda baxsaq bu il hətta I ixtisas qrupunda 23.30%, IV ixtisas qrupunda 15.56% artım var idi. Beləliklə, abituriyentlərin dövlət sifarişli yerlərdə oxumaq imkanları daha da genişlənib və onlar müəyyən ixtisaslar üzrə ötən illərlə müqayisədə nisbətən aşağı bal ilə də ödənişsiz oxumaq imkanına malik olurlar. Bununla bağlı gözləntilər əvvəlcədən var idi.

Xatırladaq ki, ixtisas seçimindən öncə Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə tərəfindən canlı yayımlar zamanı müsabiqə vəziyyəti təhlil olunmuşdu və ixtisas qrupları üzrə abituriyentlərin topladıqları ballara əsasən şansları qiymətləndirilmişdir. Müsabiqənin nəticələrinə fikir verdikdə qrup və ixtisaslar üzrə vəziyyətin necə formalaşacağı ilə bağlı proqnozların özünü doğrultduğunu görə bilərik.

Plan yerləri ən çox ikinci ixtisas qrupunda dolub (98.35%). Burada plan yerlərinin sayı imtahan verən və müsabiqədə iştirak etmək hüququ olan abituriyentlərin sayından çox olsa da, əvvəlcədən də proqnoz edildiyi kimi subbakalavrların şansı var idi və onların hesabına dolma göstəriciləri yüksəkdir. Ən çox subbakalavr (2985 nəfər) da məhz II qrup üzrə ixtisaslara qəbul olunub. I qrup üzrə də subbakalavrların imkanları var idi və 2731 nəfər qəbul olunub. III, IV və V ixtisas qruplarında plan yerləri müvafiq olaraq 93.74%, 94.36% və 91.19% dolub.

Məlumat üçün qeyd edək ki, I mərhələdən sonra I ixtisas qrupu üzrə 1557, II ixtisas qrupu üzrə 217, III ixtisas qrupu üzrə 994, IV ixtisas qrupu üzrə 231, V ixtisas qrupu üzrə isə 350 plan yeri boş qalıb.

Ayrıca ali təhsil müəssisələrinə gəldikdə, I mərhələdən sonra tələbə qəbulu aparılan 42 ali təhsil müəssisəsinin 6-da (Tibb Universiteti, Dövlət İdarəçilik Akademiyası, ADA Universiteti, Turizm və Menecment Universiteti, Bakı Ali Neft Məktəbi, Əmək və Sosial Münasibətlər Akademiyası) plan yerləri 100 %, 23 ali təhsil müəssisəsində 90%-dən çox dolub. Ümumiyyətlə, qəbul aparılan ixtisasları xüsusi qabiliyyət tələb edən ali təhsil müəssisələri istisna olmaqla, digər ali təhsil müəssisələrinin plan yerləri əsasən 80%-dən çox dolub.

Subbakalavrlarla bağlı qeyd edə bilərik ki, onlar 34 müxtəlif ali təhsil müəssisəsinə qəbul oluna biliblər. Bu il ali təhsil müəssisələrinə qəbul olunan subbakalavrların sayı da artıb və ötənilki göstəricidən 1665 nəfər daha çoxdur. Subbakalavrlar say etibarilə daha çox Mingəçevir Dövlət Universiteti (586 nəfər) Azərbaycan Texniki Universitetinə (490 nəfər), Lənkəran Dövlət Universitetinə (453 nəfər) və Azərbaycan Texnologiya Universitetinə (432 nəfər) qəbul olunub. Ali təhsil müəssisələrinin qəbul planı və onların dolma faizinə baxdıqda isə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasına qəbul olunanların 54.10%-nin, Naxçıvan Müəllimlər İnstituna qəbul olunanların 51.03%-nin, Azərbaycan Texnologiya Universitetinə qəbul olunanların 41.10%-nin subbakalavrlar olduğunu görərik.

Ali təhsil müəssisələrinə qəbulun nəticələrinə əsasən I mərhələdən sonra I ixtisas qrupu üzrə 1557, II ixtisas qrupu üzrə 217, III ixtisas qrupu üzrə 994, IV ixtisas qrupu üzrə 231, V ixtisas qrupu üzrə isə 350 plan yeri boş qalıb.

I mərhələdən sonra tələbə qəbulu aparılan 42 ali təhsil müəssisəsinin 6-da (Tibb Universiteti, Dövlət İdarəçilik Akademiyası, ADA Universiteti, Turizm və Menecment Universiteti, Bakı Ali Neft Məktəbi, Əmək və Sosial Münasibətlər Akademiyası) plan yerləri 100 %, 23 ali təhsil müəssisəsində 90%-dən çox dolub.

Ümumiyyətlə, qəbul aparılan ixtisasları xüsusi qabiliyyət tələb edən ali təhsil müəssisələri istisna olmaqla, digər ali təhsil müəssisələrinin plan yerləri əsasən 80%-dən çox dolub.

Subbakalavrlar say etibarilə daha çox Mingəçevir Dövlət Universitetinə (586 nəfər) Azərbaycan Texniki Universitetinə (490 nəfər), Lənkəran Dövlət Universitetinə (453 nəfər) və Azərbaycan Texnologiya Universitetinə (432 nəfər) qəbul olunub.

Ali təhsil müəssisələrinin qəbul planı və onların dolma faizinə baxdıqda isə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasına qəbul olunanların 54.10%-nin, Naxçıvan Müəllimlər İnstituna qəbul olunanların 51.03%-nin, Azərbaycan Texnologiya Universitetinə qəbul olunanların 41.10%-nin subbakalavrlar olduğunu görərik.

Xatırladaq ki, ali təhsil müəssisələrinə qəbul olunanlar sentyabrın 5-dən 14-dək elektron qaydada portal.edu.az saytı vasitəsilə qeydiyyatdan keçməlidirlər. Müəyyən olunmuş müddətdə qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilmədən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri ali məktəbə göndərilməyəcək.

Səfirlik Türkiyədə təhsil alacaq tələbələrə müraciət etdi

Türkiyədə təhsil almağa başlayan əcnəbi tələbələr universitetlərə ilk qeydiyyata alındıqları tarixdən etibarən üç ay ərzində bu ölkənin Sosial Müdafiə Qurumuna (SGK) müraciət edərək, tibbi sığorta oluna bilərlər.

Bu barədə Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşavirliyi məlumat yayıb. Qeyd edilib ki, tələbələr universitetlərə ilk qeydiyyata alındıqları tarixdən etibarən üç ay ərzində yazılı olaraq müraciət etmədikləri təqdirdə təhsil alacaqları müddətdə bir daha SGK-da sığorta oluna bilməyəcəklər.

Bildirilib ki, SGK tibbi xidmətlərin böyük əksəriyyətini qarşılayır.

YENİ MÜSAVAT
N 154 (8290) 1 sentyabr 2023

Səlim Müslümovun məhkəməsi niyə dayandırıldı?

Məhkəmədə paradoksal vəziyyət: 20 milyon manatı mənimsəmiş sabiq nazir azadlıqda, ondan 19 milyon 500 min manat az...

Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun cinayət işi üzrə məhkəmə prosesi növbəti dəfə, həm də qeyri-müəyyən vaxta qədər təxirə salınıb.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Faiq Qəniyevin sədrliyi ilə keçirilməsi nəzərdə tutulan prosesin təxirə salınması səbəbi açıqlanmayıb. Bu ilin əvvəlində yekunlaşmalı olan proses aylardır ki, heç bir ciddi əsas olmadan uzadılır. Bu baxımdan avqustun 30-na təyin edilən prosesin də keçirilib-keçirilməyəcəyi bəlli deyildi.

Elə də oldu, proses 2-3 dəqiqə çəkdi və təxirə salındı. Məsələn, avqustun 16-da keçirilən proses 3 dəqiqə çəkmişdi və hakimlərdən birinin dəyişməsinə görə təxirə salınmışdı. Onu da qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) sabiq aparat rəhbəri, Səlim Müslümovla birgə həbs olunan Əjdər Cəbiyev (Əjdər Ol) barəsindəki həbs qərarının dəyişdirilməsi üçün kasasiya şikayəti verib. Əjdər Ol cəzasının yüngülləşdirilməsini istəyir. Şikayət onunla əsaslandırılır ki, məhkum istintaq dövründə iş üzrə dövlətə dəymiş 600 min manata yaxın ziyanı tam ödəyib, həmçinin səhhəti ilə bağlı narahatlıq yaşayır. Səlim Müslümovun cinayət işi üzrə materiallar 2022-ci ilin iyulunda Bakı Ağır Cinayətlər Məhkəməsinə daxil olub. Az sonra, yəni 2022-ci il, avqustun 8-də hakim Faiq Qəniyevin sədrliyi ilə iş üzrə ilkin hazırlıq iclası keçirilməklə məhkəmə baxışına başlanıb. Məhkəmə başlanmazdan əvvəl Səlim Müslümov dövlətə vurduğu 20 milyon manat ziyanı tam şəkildə ödədiyindən onu həbsdən azad edib və ev dustaqlığına buraxıblar.

İş məhkəmədə araşdırılarkən Səlim Müslümovun nazirliyi dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparat rəhbəri olmuş Əjdər Cəbiyev də dövlətə vurduğu ziyanı tam şəkildə ödəyib. İstintaq materiallarına görə, o, aparat rəhbəri vəzifəsində olarkən əlinə keçən 600 min manat büdcə vəsaitini mənimsəyib. Maraqlıdır ki, həm də Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əjdər Ol təxəllüsü ilə tanınan şair-publisist Əjdər Cəbiyevi bundan sonra ev dustaqlığına buraxmadılar. Bu gün Səlim Müslümovun cinayət işi üzrə məhkəmədə paradoksal vəziyyət yaranıb - 20 milyon manatı mənimsəmiş nazir azadlıqda, ondan 19 milyon 500 min manat az mənimsəmiş aparat rəhbəri isə həbsdədir. Bu haqda yazmışdıq, bir də bilməyənlər üçün yada salaq ki, 20 milyon çəki baxımından da 500 min manatdan ağırdır.



Femidanın bir əlinə 20 milyonu, o birinə də 500 min manatı versək, heç şübhəsiz ki, ağırlıq çəkib ədalət ilahəsinin əlinin üzünü 20 milyon tərəfdə yerə vurmalıdır. Ağırdır axı. Mənimsəmə cinayətinin ağırlığı da elə bu məbləğə bərabərdir. Əjdər Ol da, Səlim Müslümov da əlini xalqın cibinə salıb, oğurluq ediblər. Səlim Müslümov razılaşmasaydı, "dobro" verməsəydi, Əjdər Ol uzağı 5 min, lap elə 50 min manatı oğurlaya bilərdi.

Əldə etdiyimiz məlumata görə, Səlim Müslümovun rahat şəkildə məhkəmədən azadlığa buraxılmasının səbəbi də məhz Əjdər Olla bağlıdır. Səlim Müslümovu azad etmək niyyəti ortada olsa da, Əjdər Olla bağlı belə bir mövqe yoxdur.

Bildirilir ki, hakim ötən il dekabrın 26-da məhkəmə istintaqının yekunlaşdırılması istiqamətində fikirlərini bildirmək üçün dövlət ittihamçısına söz verib. Prokuror məhkəmədən vaxt istəyib. Hakim dövlət ittihamçısı və müdafiə tərəfinə son təkliflərini hazırlamaq üçün vaxt verib. Tərəflər hazır olardısa, proses dekabrın 30-da davam etdirilməli idi. O gün, bu gün, proses uzandıqca uzanır, artıq məhkəməyə daxil olmasının ili də çıxıb. Halbuki lap uzağı 2023-cü il fevralın əvvəlində dövlət ittihamçısı təqsirləndirilənlərə iş istəyə bilərdi. Lakin bu günə qədər dövlət ittihamçısı çıxış etməyib. Hər dəfə müxtəlif bəhanələrlə proses uzanır. Səlim Müslümovun cinayət işi üzrə məhkəmənin yekun hökmü verilmir. Məsələ həll edilib - Səlim Müslümov necə lazımdırsa, pulları elə də ödəyib. Onu məhkəmə zalından azad etməlidirlər. Bu halda Əjdər Ol da məhkəmə zalından azad olunmalıdır. Onu azadlığa aparacaq qərarı isə Ali Məhkəmə verməlidir. Əks halda, Səlim Müslümov barəsində çıxarılan hökm elan edildiyi andan şübhə altına alınacaq. Bunu hakim də, Səlim Müslümov da yaxşı bilirlər. Səlim Müslümov Əjdər Ol "aşırımını" aşmasa, yaxın illərdə məhkəmə qapılarını gəzmək məcburiyyətində qalacaq. Yada salaq ki, Səlim Müslümovun cinayət işi üzrə sonuncu proses bu ilin may ayında baş tutub. Ondan əvvəlki prosesdə isə hakim Faiq Qəniyev proses başlayan kimi deyib ki, istintaqı aparılan israfetmə epizodu üzrə dəymiş ziyanın tam ödənilməsi ilə bağlı işlər tamamlanmayıb. Buna görə də vəkillər aprelin 17-nə təyin olunan prosesin təxirə salınmasını istəyirlər. Hakim qeyd edib ki, tərəflər iş üzrə dəymiş ziyanın tam və hərtərəfli ödənilməsini istəyir. Səlim Müslümov Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi əməliyyat nəticəsində həbs olunub.

Daha sonra səhhətində yaranan problemlərlə bağlı ev dustaqlığına buraxılıb. Onun rüşvət alma yolu ilə 13 milyon 296 min 355 manat, mənimsəmə yolu ilə 7 milyon 237 min 188 manat, israf edilmiş yolla dövlətə 7 milyon 87 min 671 manat ziyan vurduğu üzə çıxıb. Səlim Müslümovun barəsində Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə ittiham elan edilib. Cinayət işi üzrə Maliyyə Nazirliyi zərərçəkmiş qismində tanınıb. Səlim Müslümov əlbir olduğu digər vəzifəli şəxslərlə birgə mütəşəkkil şəkildə böyük korrupsiya cinayətləri törətdiklərini boynuna alıb. O, oğurladığı 20 milyon manatı geri qaytarıb. Məhkəmənin gedişatında isə onunla işbirliyində olmuş şirkətlərin əvəzindən 4 milyon 500 min manatı da ödəməklə cinayətlərin mütəşəkkil qaydada törədilməsini etiraf etmiş olub. Səbayel Rayon Məhkəməsinin 1 iyul 2022-ci il tarixli qərarına əsasən, sabiq nazirə məxsus mənzil, qeyri-yaşayış sahəsi və avtomobillərin üzərinə həbs qoyulub.

❑ Musavat.com

Baş prokuror livanlı həmkarı ilə danışdı



Bir çox yerli və xarici media resurslarında avqustun 29-da Azərbaycan Respublikasının Livan Respublikasındakı Səfirliyi qarşısında aksiya keçirən 50-yə yaxın erməni əsilli şəxsin səfirliyin inzibati binasının ətrafındakı hasara zərbələr endirib, özləri ilə gətirdikləri içərisində boya olan və partlayıcı bərkidilmiş şüşələri, eləcə də bərk cisimləri səfirliyin inzibati binasına atmalarını əks etdirən videogörüntülər yayılıb.

Baş Prokurorluqdan verilən xəbərə görə, qeyd olunan məsələ ilə bağlı Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyev Livan Respublikasının Baş Prokuroru Qassan Ueydatla telefon danışığı aparıb.

Danışıq zamanı beynəlxalq norma və prinsiplərə, eyni zamanda daxili qanunvericiliyə uyğun olaraq hərtərəfli, tam və obyektiv istintaq aparılmaqla təqsirkar şəxslərin dairəsinin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilmələri istiqamətində zəruri və təxirəsalınmaz tədbirlərin görülməsi xahiş olunub.

Oğuzda fındıq oğruları ələ keçdi



Oğuz rayonunun Sincan kəndində yerləşən 3 evdən ayrı-ayrı vaxtlarda ümumilikdə 300 kiloqrama yaxın fındığın oğurlanması barədə polis şöbəsinə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan verilən məlumata görə, aparılan araşdırmalar zamanı oğurluqların eyni şəxslər tərəfindən törədildiyi müəyyən edilib. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində hadisələri törətməkdə şübhəli bilinən üç dost - Elnur Usubov, Murad və Dilavər Mikayılovlar saxlanılıblar. Saxlanılan şəxslər ifadələrində əməllərini gecə saatlarında həyata keçirdiklərini və oğurladıqları fındıqları Qəbələ rayonuna apararaq orada satdıqlarını, əldə etdikləri qazancı isə öz aralarında böldüklərini bildiriblər.

Bakıda 12 minlik oğurluq



Bakıda 12 min manatlıq oğurluq hadisəsi baş verib.

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Xətai RPİ 37-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Ağdam rayon sakini S.Bəylərov saxlanılıb.

S.Bəylərov ayrı-ayrı vaxtlarda rayonun Mingəçevir küçəsində olan qarajın qarşısından 12000 manat dəyərində çən, avtomobil yağı qarışdıran qurğu və avtomobil ehtiyat hissələri oğurlamaqda şübhəli bilinir.

YENİ MÜSAVAT
N 154 (8290) 1 sentyabr 2023

Xalq pulunu bankdan çıxarıb evdə saxlamağa başlayıb: səbəblər

Ekspertlərdən SOS!: "Banklar və iqtisadiyyat üçün təhlükə var"

Azərbaycanın bank sektorunda real vəziyyətin təhlili müəyyən maraqlı məqamları üzə çıxarmaqdadır. Söhbət ondan gedir ki, bankların əsas maliyyə qaynaqlarından biri olan əmanətlərin azalması prosesi başlayıb. Bunun bank sektorunun maliyyə dayanıqlığına təsiri getdikcə əsas müzakirə predmetlərindən birinə çevrilir.



İqtisadçı-alim, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirir ki, bu ilin geridə qalan aylarında əhalinin banklardakı depozitlərinin aylıq həcmində 2 dəfə azalma qeydə alınıb: "İlk hal bu ilin fevral ayında baş verdi: depozit məbləği 27 milyon manat azaldı. Bu, 2021-ci ilin avqust ayından sonra ilk azalma idi. Əhalinin banklarda olan əmanətlərinin azalması ötən ayda da qeydə alındı. Belə ki, avqustun ayının 1-nə olan məlumata görə, ümumi əmanətlərin həcmi əvvəlki ayla müqayisədə 43.3 milyon manat azalaraq 12 milyard 705 milyon manata düşdü".

İqtisadçı-alimə görə, banklardakı depozit gəlirlərinin fevral ayından etibarən vergiyə cəlb edilməsi də əmanətlərin həcminə təsir göstərir: "Doğrudur, xərcləmələr və eləcə də real sektora sərmayələr və mövsumi faktorlar da öz təsirlərini saxlamaqdadır. Əmanətlərin daha çox cəlbi real sektorun maliyyələşdirilməsi və kredit faizlərinin aşağı salınması baxımından da əhəmiyyətlidir. Bu baxımdan, əmanət portfelinin dayanıqlı artımına nail olmaq çox vacibdir.

Bu kontekstdən daha məqsədəuyğun olardı ki, Vergi Məcəlləsinə dəyişiklik edilərək əmanətlər üzrə differensial vergi güzəşti tətbiq olunsun. Təklif edirik ki, qorunan əmanətlər eyni zamanda vergidən azad olunsun. Bu halda, 100 min manatadək əmanətlər 10 faizlik gəlir vergisindən azad oluna bilər ki, bu da depozit yığımlarını stimullaşdıraraq daha da artırar".

Millət vəkili bildirir ki, son dinamika bir daha təsdiq edir ki, vətəndaşların passiv vəsaitlərinin banklar vasitəsilə real sektora yönəldilməsi üçün diferensial vergi güzəştinin tətbiqinə ehtiyac var: "Bu, həmçinin evlərdə saxlanan pulların depozitə çevrilərək vətəndaşlarımızın gəlir əldə etməsinə də imkan yaradar".

İqtisadçı-ekspert Elman Sadıqov deyir ki, əmanətlər haqqında çox danışılır: "İqtisadiyyat üçün əmanətlərin əhəmiyyəti nə qədərdir? Sualın cavabı şəksiz olaraq çox böyükdür. Və bu, müzakirə mövzusu belə deyil. Nədir bu əhəmiyyət? Hər bir ölkə, hökumət maraqlıdır ki, vətəndaşları yığıma mümkün qədər daha çox vəsait yönəltsin. Əlbəttə, istehsalın artması üçün istehlakın artmasının da əhəmiyyəti var. Amma əhalisi yığıma daha çox vəsait yönəldən ölkələr daha uğurlu ölkələr hesab olunurlar. Əhalinin gəlirlərindən yığıma ayırdığı vəsaitin həcmi müxtəlif ölkələrdə müxtəlifdir: 15, 20, 30, 40 faizə qədər gəlirin yığıma yığma yönəldildiyi ölkələr var. İnkişaf etməkdə olan ölkələr arasında ən yüksək səviyyə Çindədir. Burada əhali gəlirlərinin 50 faizini yığıma yönəldir.

Azərbaycana gəlincə, açığını deyim ki, Azərbaycanda gəlirlərin çox az bir hissəsi yığıma yönəldilir. Əslində biz ölkə olaraq, bank sektoru olaraq yığımın artmasında maraqlı olmalıyıq. Çünki yığım ilk növbədə banklar üçün vacibdir - likvidliyi təmin etmək üçün. İkinci növbədə əhalinin özünə xeyirlidir - əmanət qoyduğu vəsaitdən daha çox gəlir əldə edər, yəni gəlirləri artar. Nəhayət, əmanətin çoxluğu iqtisadiyyat üçün ümumilikdə çox önəmlidir. Əmanətlərin çoxluğu iqtisadiyyata yönəltmək üçün kreditlərin, investisiyaların çoxluğu deməkdir. Aydındır ki, banklar əmanət olaraq topladıqları vəsaitlərin bir hissəsini biznesə kredit kimi ayırırlar. Bəs əmanətlərin investisiyalaşmada hansı rolu var? Əksər inkişaf etmiş ölkələrdə banklar həm də böyük investorlar rolunda çıxış edirlər. İnvestisiya bankları olan bu qurumlar depozitlərin bir hissəsini korporativ investisiyalara yönəldirlər: böyük şirkətlərin səhmlərinə yatırım etməklə onların daha da inkişafında iştirak edirlər. Yəni depozitlər ölkədə həm daxili investisiyaların, həm də kreditləşmənin artmasına imkan yaradır".

Ekspert bildirir ki, Azərbaycanda bank sektorunun özü kiçikdir: "Ölkə iqtisadiyyatının ölçüsü ilə müqayisədə 45 milyard manatlıq bank sektoru kiçik bir göstəricidir. Bu 45 milyardlıq sektorun 12 milyard manatı əhalinin depozitləridir və bu da kiçik göstəricidir. Biz bu göstəricinin artmasına çalışmalıyıq ki, ölkə iqtisadiyyatının inkişafı üçün əlavə stimul formalaşsın. Amma təəssüf ki, biz bu il ərzində əmanətlərin azalmasının şahidi oluruq. Burada əmanət gəlirlərinin vergiyə cəlb olunması mütləq və mütləq rol oynayır. Biz məhz buna görə təklif etmişdik ki, 100 min manata qədər olan əmanətlərə vergi tətbiqi şamil olunmasın. Çünki burada həm də psixoloji faktor var. Eyni zamanda adi iqtisadi gerçəkliklər var. Əgər ölkədə inflyasiya 10 faizin üzərində, depozit faizləri isə altındadırsa, bu, faktiki olaraq depozitlərin il ərzində nəinki gəlir gətirmədiyi, həm də zərərlə üzləşdiyi deməkdir. Belə bir şəraitdə depozitlərdən əldə olunan faizlərə vergi tətbiqi əmanətlərə marağı kəskin aşağı salan faktora çevrilməliydi, çevrildi də. Burada digər bir nüansı yaddan çıxartmaq lazım deyildi. Önəmli olan məsələlərdən biri bundan ibarətdir ki, banklar hazırda əllərindəki likvid vəsaitləri yatırmaqda çətinlik çəkirlər. Buna görə də onlar depozit cəlb etməkdə maraqlı deyillər. Və elə bu səbəbdən də depozit gəlirlərinin vergiyə cəlb olunmasından vətəndaşın yaranan itkisini qarşılamağa da həvəs göstərmirlər. Aşağı olan depozit faizlərindən əldə olunan gəlirlərin 10 faiz vergiyə cəlb olunması əhalinin bu yığım növünə marağını kəskin azaldır. Nəticədə əhali ya əlinə gələn vəsaiti istehlaka yönəldir, ya da yastıq altına toplayır. Bu isə gələcək üçün, iqtisadiyyat üçün heç də yaxşı olmayan bir prosesdir. Sabah iqtisadi gerçəkliklər dəyişdikdə, yeni iqtisadi konyuktur formalaşdıqda, bankların likvidliyini artırmaq lazım gəldikdə, biz depozitləri banklara rahatlıqla cəlb edə bilməyəcəyik. Çünki depozit bir kültür məsələsidir, uzunmüddətli davranışların məhsuludur. Bu gün biz o kültürün formalaşmasına imkan vermiriksə, sabah ondan bəhrə götürə bilməyəcəyik. Depozit bir çox oyunçuların maraqlarının uzlaşdırılması lazım gələn məsələdir: bankların, biznesin, iqtisadiyyatın, ən əsası vətəndaşların. Biz bu uzlaşdırmanı dəqiqliklə aparmayınca, indiki kimi tarazlığın pozulması və əmanətlərin azalması kimi mənfi proseslə üzləşəcəyik".

Xatırladaq ki, Azərbaycanda əmanətlər üzrə ödənilən illik faiz gəlirləri 2016-cı ildən başlayaraq 7 il müddətinə vergidən azad olunmuşdu. Həmin müddət bu ilin fevralında başa çatdı, hökumət onun uzadılmasında maraqlı olmadı. Nəticədə fevralın 1-dən yerli bank və xarici bankların Azərbaycandakı filiallarının fiziki şəxslərin əmanətləri üzrə ödədikləri illik faiz gəlirlərindən 10 faiz vergi tutulur.

Rəsmi məlumatlara görə, 2022-ci ildə Azərbaycanda fəaliyyət göstərən banklar depozitlər üzrə 459 milyon manat faiz ödəyiblər. Depozitlər üzrə ödənilmiş faizlər 2021-ci illə müqayisədə 2022-ci ildə 96.7 milyon manat və ya 26.7 faiz artıb. Hökumət vergi güzəştinin müddətini artırmamaqla bu il ərzində əmanət faizlərindən təxminən 45-50 milyon manat gəlir əldə edəcək. Əmanətlərin azalması ilin sonunadək davam edərsə, banklar bunun ikiqatı qədər likvid vəsaitdən, yəni əmanətdən məhrum olacaqlar. Bank mənbələrindən əldə etdiyimiz məlumata görə, əhali banklardakı əmanətlərinin müddəti bitdikcə, vəsaitlərini geri götürməyə üstünlük verir, nəinki növbəti müddət üçün yenidən yatırım etməyə. Bu isə növbəti aylarda əmanət həcmlərinin azalması təhlükəsini artırır. Bu isə ona gətirib çıxaracaq ki, hökumətin əmanət faizlərindən vergi gəlirləri azalacaq, ölkə üzrə kreditləşmə səviyyəsi düşəcək. Hələlik kreditləşmənin biznes sektoru üzrə azalması müşahidə olunur. Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, ölkədə 2023-cü il avqustun 1-nə biznes kreditlərinin həcmi 11 milyard 622.7 milyon manat təşkil edib. Bu isə o deməkdir ki, biznes kreditlərinin həcmi cari ilin iyul ayının 1-i ilə müqayisədə 0,2 faiz və ya 27,8 milyon manat azalıb.

Qeyd etmək lazımdır ki, Azərbaycanda bankların vəsait əldə etmək üçün cəmi 3 mənbə var: Mərkəzi Bankın kreditləri, xarici maliyyə qurumlarından götürülən borclar və əmanətlər. Mərkəzi Bankın ucuz kreditlərinin çox böyük hissəsi 4, ən yaxşı halda 5 banka çatır. Bu banklar faktiki inhisarçı mövqedədirlər. Onlar həm də çoxmilyonlu müştəri verən dövlət qurumlarına xidmət sahəsini tam inhisara götürdüklərinə görə daha bir böyük gəlir mənbəyinə malikdirlər. Buna görə də iri banklar əmanət qəbulunda da maraqlı deyillər. Onların təklif etdikləri əmanət faizləri banklar arasında ən aşağı faizlərdir.

Kiçik və orta bankların isə əsas vəsait mənbəyi əmanətlərdir. Lakin onlar əmanət cəlb edərkən yüksək faiz tətbiq edə bilmirlər: əvvəla, ona görə ki, dövlət yalnız 12 faizə qədər olan əmanətləri sığortalayır. İkinci tərəfdən, iqtisadiyyatın, xüsusilə də sahibkarlığın inkişaf səviyyəsi yüksək faizlə yığılan əmanətləri daha yüksək faizlə yerləşdirib gəlir əldə etməyə imkan vermir. Aşağı faizlə toplanan əmanətdən hesablanan faiz gəlirlərinin 10 faizinin də vergi şəklində əmanətçilərdən alınması nəticədə əhalinin əmanətə marağının azalmasına gətirib çıxarır.

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Regionların inkişafı

YENİ MÜSAVAT
N 154 (8290) 1 sentyabr 2023

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Kartof və pambığın istehsalı niyə azalır?

Fermerlər bazarları araşdırır və daha gəlirli əkinlərin aparılmasına çalışır



2023-cü ilin yanvar-iyul aylarında Azərbaycanda 32 min 665 hektar sahədən 664 min 921.7 ton kartof yığılıb. Bu barədə Dövlət Statistika Komitəsinin hesabatında bildirilib. Qeyd edilir ki, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1.8 % və ya 12 min ton azdır. 2022-ci ilin yanvar-iyul aylarında 34 min 762 hektar sahədən 676 min 984 ton məhsul yığılıb. Qeyd edək ki, hesabat dövründə ən çox kartof Cəlilabad (161500 ton), Şəmkir (143750 ton) və Tovuz (136055 ton) rayonlarından yığılıb. Niyə kartof əkininə tələbat belə azalır? İdxal mane olur, yoxsa digər səbəblər var?

Yeri gəlmişkən, Azərbaycana Belarusdan, İrandan və digər ölkələrdən kartof idxal olunur. Bunun da əsas səbəbi fermerlərin ərsəyə gətirdikləri kartofun saxlanma şəraitinin olmaması ilə bağlıdır. Məhz elə bu səbəbdən də mövsüm zamanı məhsul bolluğu qeydə alınsa da, qeyri-mövsüm dövründə idxaldan asılı vəziyyətə düşürük. Qida rasionumuzda önəmli yer tutan kartof istehsalı mövcud tələbatdan çox olsa da, hələ də idxaldan asılılığı aradan qaldıra bilmirik. Ekspertlər bunun əsas səbəbini saxlanma şəraitinin olmaması ilə əlaqələndirirlər. İllərdir müvafiq saxlanma anbarlarının sayının artırılması ilə bağlı problem səsləndirilsə də, bu məsələ öz həllini tapmır. Son illər Azərbaycanda kənd təsərrüfatı sahəsinin inkişafına xüsusi diqqət yetirilsə də, təəssüf ki, məhsulların saxlanılması üçün münbit şərait yoxdur deyə qeyd edilir.

Problem yalnız kartofla da deyil, pambıq ixracı da aşağı enib. Dövlət Gömrük Komitəsindən bildirilir ki, Azərbaycan bu ilin yanvar-iyul aylarında 104,1 milyon dollar dəyərində pambıq ixrac edib. Ölkənin pambıq ixracından qazancı ötən ilin eyni dövrü ilə müqayisədə 64,8 milyon dollar və ya 38,3% azalıb. Hesabat dövründə pambıq ixracı Azərbaycanın ümumi ixracının 0,50%-ni təşkil edib. Əlavə edək ki, ötən ilin eyni dövründə ölkənin pambıq ixracının dəyəri 169 milyon dollar təşkil edib.

Mövzu ilə bağlı iqtisadçı millət vəkili Azər Badamov "Yeni Müsavat"a dedi ki, kartof strateji məhsuldur və hətta kartofu çörəklə müqayisə edirlər: "Kartof xalqımızın rasionunda əsas yer tutan ərzaq məhsuludur və bu məhsula olan tələbatı daxili istehsalla ödəməyə çalışmalıyıq. Amma ölkəmizdə kartof istehsalı keçən illə müqayisədə 1,8% azalıb. O cümlədən pambıq istehsalında da azalma müəyyən olunub. Belə ki, pambıq ixracımız da 38,85 % azalma qeydə alınıb. Bu məhsulların istehsalında azalmaların olmasının səbəbləri araşdırılmalıdır. Çünki pambıq qeyri-neft sektoru üzrə ölkəmizə ən çox valyutaya gətirən mallardandır. Təbii ki, qeyri-neft ixracının azalması, bu sektordan ölkəyə gələn valyutanın həcminin də azalmasına təsir göstərir. Biz bazar iqtisadiyyatında yaşayırıq və torpaqlar özəl mülkiyyətə verilib. Fermerlər əkin sahələrində əkinlərin əkilməsində sərbəstdirlər. Düzdür, dövlət müxtəlif növ məhsulların əkilməsinə müxtəlif həcmlərdə subsidiyalar verməklə fermerləri stimullaşdırır. Məhz bəzi növ kənd təsərrüfatı məhsulların becərilməsinə daha çox subsidiyaların verilməsi və bəzi məhsullara təhvil verilən məhsula görə subsidiyaların ödənilməsi müəyyən olunmuş strateji məhsulların əkilməsində fermerləri həvəsləndirir. Amma dövlət fermerlərə bir başa hansısa məhsulun əkilməsi ilə bağlı göstərişlər vermir".

Deputat əlavə edib ki, fermerlər bazarları araşdırır və daha gəlirli əkinlərin aparılmasına çalışır: "Belə ki, son illər ölkəmizdə bağçılıq sürətlə inkişaf edir. Xüsusilə intensiv üsullarla əkilən bağların gəlirliliyi digər məhsulların gəlirliyindən daha da çoxdur. Ona görə də fermerlər kartof və digər bitkiləri əkdiyi sahələrdə intensiv bağlar salaraq daha çox gəlir almağa çalışır. Statistika Komitəsi kartof və pambığın istehsalındakı azalmaları qeyd etməklə yanaşı bağların əkilməsindəki artımının statistikasını da qeyd etsə görərik ki, bitkiçilik məhsulları əkilən sahələrin hər il azaldığını müşahidə edərik. Buradan da kartofun və pambığın istehsalının azalmasının əsas səbəbini aydın şəkildə görə bilərik. Son nəticədə isə pambığın ixracındakı azalma meyvələrin ixracı ilə əvəzlənir və ölkəyə daha çox gəlir gətirir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

Bezdirici Bakı tıxacları "istirahətdən qayıdır"

Niyə paytaxt küçələrində bu problemi önləmək mümkünsüzdür?



Yeni tədris ilinin başlamasına iki həftədən az müddət qalıb. Bakı şəhərində ictimai nəqliyyatda sıxlıq artıb və daha çox küçədə tıxac müşahidə olunur. Ancaq tıxacları azaltmaq üçün hələlik tədbirlər görülməyib.

Qeyd edək ki, ötən ayın sonu baş nazir Əli Əsədovun sədrliyi ilə Nəqliyyatı Əlaqələndirmə Şurasının iclası keçirilib. İclasda Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi və səmərəli işinin təşkil edilməsi ilə bağlı aidiyyəti qurumların rəhbərlərinin məruzələri dinlənilib, müvafiq tapşırıqlar verilib.

Tıxaclar adətən sentyabr ayının birinci yarısında başlayır. Dərs başlayan günlər tıxaclar pik həddə çatır.

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, ilk növbədə Bakıda həyata keçirilən nizamsız tikintilər tam nəzarətə götürülməlidir: "Bu gün hansı qurum Bakıda nə istəyir, onu da edir. Kim istəyir avtomobili yolunu zəbt edib orada çoxmərtəbəli bina tikir, kim istəyir piyada səkisini zəbt edir. Piyada səkilərində dırnaqarası velosiped yolları çəkilir. Bakı Nəqliyyat Agentliyi (BNA) ötən illər ərzində Bakıda təhlükəsizlik adaları adı ilə paytaxt küçələrində butulka effekti yaradan küçələrin daraldılmasını həyata keçirib. Bununla da daha çox tıxacların yaranmasına səbəb olub. Deməyim odur ki, istənilən qurumun, təşkilatın Bakıda tikinti, söküntü, qazma işlərini aparmasının qarşısı alınmalıdır, ciddi nəzarətə götürülməlidir ki, avtomobil yolları ilə bağlı belə hallar baş verməsin. Avtomobil yolları azaldıqca sıxlıq da olur, tıxaclar da yaranır. Biz ötən illər ərzində bununla bağlı BNA-ya fikrimizi bir vətəndaş kimi bildirmişdik. Lazımsız yerə paytaxtda avtomobil yollarını daraltmasınlar. Çünki butulka effekti olan yerdə, əlbəttə, tıxaclar olur. Buna baxmayaraq, onlar öz bildiklərini etdilər. Bu gün biz onun problemini yaşayırıq. Misal üçün, Bakıda Ağa Nemətullah küçəsi, Seyid əzim Şirvani küçəsində həyata keçirilən dırnaqarası yenidənqurma, təhlükəsizlik adaları sıxlığa, qəzalara da səbəb olurdu. Bundan sonra sakinlər narazılıq etdi və həmin o adalar da yenidən söküldü və həminki vəziyyətə qaytarıldı".

Qeyd etmək yerinə düşər ki, ötən tədris ilində yeraltı nəqliyyatdan istifadə edən hər kəs metroda sıxlığın artdığından, hətta hərəkət etməyin çox çətin olmasından şikayətlənirdi. Vəziyyət o həddə çatmışdı ki, sıxlıq ucbatından metroya daxil ola bilməyənlər olmuşdu, hətta sıxlıq ucbatından halı pisləşənlər az deyildi. Bəs bu il Bakı Metropoliteni yeni tədris ilinə necə hazırlaşır?

Məsələ ilə bağlı "Bakı Metropoliteni" QSC-nin mətbuat katibi Bəxtiyar Məmmədov "Yeni Müsavat"a dedi ki, metropoliten pandemiya dövründən sonra tam həcmdə, normal iş şəraitində qrafikini aprel ayının 5-də tətbiq etməyə başlayıb: "Bu ilin sentyabr ayında təbii ki, böyük axını gözləyirik. Ötən ilin sentyabrında pandemiyanın təsirləri müəyyən mənada var idi və "Bakı Metropoliteni" hərəkət qrafikini məhz sərnişin axını istiqamətini öyrənərək tətbiq etmişdi. Builki monitorinqlərimiz bir qədər fərqli istiqamətdə qurulub. Ümumiyyətlə, hazırda sərnişindaşıma xüsusi nəzarət altındadır. Avqust və sentyabr ayının ilk ongünlüyü "Bakı Metropoliteni"ndə dəyişən sərnişin axını müşahidə edilir. Birincisi, fəal istirahət dövrünün başa çatması, müəssisələrdə iş rejimi tam işçi heyəti ilə olur ki, bütün bu məlumatları toplayırıq, gündəlik işimizi bunun üzərində qururuq. Ehtiyat qatarlarının xəttə verilməsi və digər məsələlərə ciddi nəzarət edilir. Sərnişinlər də bunu hiss edirlər ki, interval 2 dəqiqə yarım olmalıdır, amma qatarlar daha tez gəlir. Dərnəgül istiqamətində olanlar artıq 5-6 dəqiqə deyil, daha tez gəlir. Bu da ehtiyat qatarların xəttə verilməsi ilə bağlıdır", - deyə B.Məmmədov bildirib.

"Bakı Metropoliteni" rəsmisi onu da əlavə etdi ki, yeni dərs ilinə hazırlığın ikinci istiqaməti məhz tədris müəssisələri ilə bağlıdır: "Bütün kateqoriyadan olan tədris müəssisələrinin hər birinin fəaliyyətinə ayrılıqda baxmağa çalışırıq. Müəyyən məlumatları əldə etməyi çalışırıq. Tədris müəssisələrində birinci, ikinci növbə, dərslərin başlama-bitmə saatı, tələbə-müəllim kontingentinin sayı monitorinqlərimizdə xüsusi yer alır və baxılacaq. Lakin bu il "Bakı Metropoliteni"ndə sıxlıq olmayacaq kimi anlayışa konkret cavab vermək mümkün deyil. "Bakı Metropoliteni" isə bütün hazırlıqlarını maksimal texniki və işçi heyəti baxımından quracaq. Artıq elan etmişik, sentyabrın 15-dən dərs mövsümü başlayanda bizdə də qrafiklərdə dəyişiklik olacaq. "Bakı Metropoliteni"ndə "28 May", "Həzi Aslanov" sahəsi ən qısa intervalların tətbiq olunacağı yerdir. Orada iki dəqiqədən aşağı intervalı tətbiq etmək qeyri-mümkündür. Belə olduqda "Bakı Metropoliteni" prinsipinə uyğun olaraq xətlər müstəqil fəaliyyət göstərməlidir. Hər xətt üzrə qatarlar sərbəst hərəkət etməlidir. Bizdə isə "28 May" stansiyasında iki xətt birləşdiyindən artıq "Dərnəgül" və "İçərişəhər" istiqamətində intervallar iki dəfə artıq olur. Bu nüansı aradan qaldırmaq qeyri-mümkündür. Stansiyaların sərnişin tutumu var. Platforma 5 vaqonluq sərnişin üçün nəzərdə tutulub. Bu qaydanı da dəyişə bilmərik. Bu səbəbdən artıq sərnişin sayı axınından asılı olaraq digər tənzimləmələr həyata keçiriləcək. Hazırda bu tənzimləmələr barədə danışmaq çox tezdir. Dərs ili açılandan sonra gedişatda tənzimləmələr tətbiq ediləcək. İrimiqyaslı texniki tədbirlərin görülməsi üçün ən vacib şərt xətlərin ayrılması layihəsi üzrə müəyyən işlərin görülməsidir ki, bu da "Bakı Metropoliteni"nin konseptual inkişaf sxemi, eyni zamanda Bakının Baş planında da nəzərə alınıb".

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"

Tikinti materiallarında ucuzlaşma

Rusiyadan idxal olunan dəmir məmulatlarının qiymətində də xeyli ucuzlaşma var



Rusiya və Ukrayna arasında baş verən hadisələr Azərbaycanın tikinti sektoruna da öz təsirini göstərdi. Son illər tikinti materiallarının qiyməti sürətlə artırdı. Ancaq son zamanlar tikinti bazarında fərqli mənzərə müşahidə olunur.

Tikinti materiallarının qiyməti ötən ayla müqayisədə ucuzlaşıb. Maraqlıdır, tikinti materiallarının qiyməti niyə ucuzlaşıb?

Daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə bildirdi ki, bu il Azərbaycanın tikinti materialları bazarında qiymətlər ötən illə müqayisədə xeyli aşağı düşüb. Bu bazarın strukturu elədir ki, qiymətlər hər an dəyişə bilir: "Taxta materiallarının idxalı müəyyən dövr ərzində dayanır, qiymətlər bahalaşır. Yaxud bazara o qədər material daxil olur ki, bu da qiymətləri ucuzlaşdırır. Cari il ərzində bir neçə dəfə taxta materialları qiymətlərinin qalxıb-enməsi müşahidə olundu. Məlumdur ki, Rusiya-Ukrayna müharibəsi başlayandan sonra bir müddət hər iki ölkədən tikinti materialların idxalı mümkün olmadı. Rusiyaya tətbiq olunan sanksiyalar isə bu vəziyyəti daha da gərginləşdirdi. Ancaq daha sonra məlum problem aradan qalxdı və yenidən ölkəyə tikinti materialları daxil olmağa başladı. Məlumat üçün deyim ki, ötən il bir kub/metri 450 manat olan taxtanın qiyməti hazırda 280-250 manata qədər ucuzlaşıb. Xaricdən idxal olunan materiallarda qiymətləri tənzimləmək olmur, yəni birdən-birə ya kəskin ucuzlaşır, ya da bahalaşır. Ancaq yerli materiallarda ötən illə müqayisədə cüzi bahalaşma müşahidə olunur. Ümumiyyətlə, bazarda bolluq yaranan zaman satıcılar materialları maya dəyərindən də aşağı qiymətə satmağa məcbur olurlar. Bu il həm də bazarda əvvəlki illərlə nisbətdə bir qədər alıcı qıtlığı hiss olundu. Ona görə ki, qiymətlər ucuzdur".

Ekspert onu da əlavə etdi ki, Rusiyadan idxal olunan dəmir məmulatları xeyli ucuzlaşıb: "Bu da onunla bağlıdır ki, ölkəmizdə də istehsal olunan bu materialların maya dəyəri ucuz başa gəldiyi üçün, idxalın qiymətində endirimlər edildi. Daxili istehsal olan dam örtükləri və kirəmitlərdə qiymətlər əsasən stabildir. Artıq yerli məhsul bazarda özünə yer etməyə başlayıb, hətta böyük paya malik olub. 1 kv-metrlik dam örtüyünün qiyməti təxminən 6-7 manata təklif olunur. Bu qiymət bəzən 4 manata qədər düşə bilir. Xarici məhsullar isə bir qədər bahadır, yəni 10-12 manata qədərdir. Ən bahalı örtüklər isə Finlandiya istehsalı olan dam örtüklərində müşahidə olunur. Qiymətlər əsasən millimetrə görə dəyişir, yəni 0.21mm-dən 0,50 mm, hətta 100 mm-ə qədər dam örtükləri var. Ən qalın örtüklər isə 0.38-0.45 mm olmalıdır".

Bakıda kirayə evlər necəyədir?

Ali təhsil müəssisələrində dərslərin başlamasına az müddət qalıb. Ölkənin müxtəlif bölgələrində yaşayan tələbələr kirayə mənzil axtarışı ilə paytaxta üz tutub.

Tələbat çox olsa da uyğun qiymətə mənzil tapmaq heç də asan deyil.

Bakının bəlli rayonlarında avqust-sentyabr aylarında kirayə mənzillərin qiyməti bahalaşıb. Bahalaşma əsasən tələbə axını ilə əlaqəlidir və 20-30 faiz civarındadır.

Hazırda universitetlərə yaxın rayonlar üzrə qiymətlər belədir:

Yasamal rayonunda 2-3 otaqlı və əşyalarla birgə kirayə evlər 400-650 manat arasında dəyişir. Bu evləri bir neçə tələbə kirayə götürərkən onlara qiymət 100-200 manat arasında başa gəlir.

Nərimanov rayonunda 2-3 otaqlı evlərin qiyməti 550-750 manat arasında dəyişir.

Bakıdan kənarda isə kirayə evləri 2 dəfə ucuz qiymətə tapmaq mümkündür.

Qeyd edək ki, ötən illə müqayisədə kirayə evlərin qiymətində 50-100 manat bahalaşama qeydə alınır.

Sərsəng su anbarında yaranmış qəza vəziyyəti ilə əlaqədar ekoloji yönümlü qeyri-hökumət təşkilatları bəyanat yayıb.



"Sərsəng su anbarının idarəçiliyi Azərbaycana təhvil verilməlidir"

QHT-lər bəyanat yaydı

Bəyanatı "Sudan İstifadə Sahəsində Mütəxəssislər" İctimai Birliyinin sədr müavini Amin Məmmədov səsləndirib.

Bəyanatda deyilir:

"Biz, Azərbaycanın vətəndaş cəmiyyətini təmsil edən qeyri-hökumət təşkilatları birgə bəyanat verərək Sərsəng su anbarında yaranmış qəza vəziyyəti ilə əlaqədar dərin narahatlığımızı ifadə edirik.

Sərsəng su anbarının Ermənistan və onun himayə etdiyi qanunsuz rejimin tör-töküntüləri tərəfindən qəsdən Azərbaycan əhalisinə qarşı ekoloji və sosial-iqtisadi terror vasitəsi kimi istifadə olunması yolverilməzdir.

47 il əvvəl istismara verilmiş Sərsəng su anbarının təmir və bərpasına ciddi ehtiyac var. 30 ildən artıqdır ki, Ermənistan bu su anbarını qanunsuz istismar edib, iqtisadi və ekoloji cinayətkarlıqla məşğul olub. Bu əməllərin davam etdirilməsi yolverilməzdir.

Azərbaycanın rəsmi qurumlarının bu yaxınlarda Sərsənglə əlaqədar yaydığı bəyanatda (https://azertag.az/en/xeber/Joint statement issued re garding situation around Sarsang reservoir-2740762) qeyd edilir ki, anbarın mövcud qəza vəziyyəti onun aşağı hissəsində yerləşən yaşayış məntəqələri, təsərrüfatlar və infrastruktur obyektləri üçün ciddi təhlükə yaradır.

Uzun illər bu su anbarının suyu qış vaxtı ərazinin mövsümü ehtiyacları nəzərə alınmadan əhalisi azərbaycanlılardan ibarət olan kəndlərə buraxılıb və nəticədə yaşayış məntəqələri, kənd təsərrüfatı sahələri və kommunikasiya xətləri qışda su altında qalıb. İsti yay mövsümündə isə su buraxılmayıb, bu da kəskin su qıtlığı, əkin sahələrinin suvarılmasında problemlər yaradıb, yaşıllıqlar quruyaraq məhv olub.

1966-cı il Helsinki və 2004-cü il Berlin Qaydalarına əsasən, sudan istifadə hüququ həyat və sağlamlıq üçün vacibdir və bu, digər insan hüquqlarından istifadənin ilkin şərtini təşkil edir.

Ermənistan heç vaxt Sərsəng su anbarı ilə əlaqədar beynəlxalq ictimaiyyətin çağırışlarına məhəl qoymayıb. Bunun bariz nümunəsi kimi Ermənistan Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi 2016-cı il 26 yanvar tarixli 2085 nömrəli Qətnamədə bu hərəkətlərin Azərbaycan vətəndaşları üçün humanitar və ekoloji problemlər yaratmağa yönəlmiş ekoloji təcavüz kimi qiymətləndirilməsindən nəticə çıxarmayıb. Həmin qətnamədə göstərilirdi ki, Sərsəng su anbarının düzgün idarə olunmaması çoxsaylı insan tələfatı və yeni humanitar böhrana gətirib çıxara bilən böyük fəlakət riskinə malikdir.

Ötən dövrdə Ermənistanın qanunsuz fəaliyyətini davam etdirməsi Sərsəng su anbarında hər an dəhşətli humanitar fəlakətə səbəb ola bilər.

Böyük kənd təsərrüfatı potensialı və münbit torpaq ehtiyatlarına malik Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının suvarma tələb olunan əraziləri Ermənistanın Sərsəng su anbarı ilə əlaqədar özbaşınalıqlarının qurbanına çevrilib. Biz buna etiraz edirik! Sərsəng su anbarı təyinatı üzrə istifadə olunarsa, 100 min hektar əkin sahəsi aktiv kənd təsərrüfatı dövriyyəsinə cəlb oluna bilər.

Ermənistan törətdiyi digər ekoloji cinayətlərlə yanaşı, Sərsəng su anbarının qanunsuz istismarı və ekoloji terror aləti kimi istifadəsi nəticəsində Azərbaycan iqtisadiyyatına vurduğu böyük zərərə görə Azərbaycan dövlətinə təzminat ödəməlidir.

Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində ekoloji terroru davam etdirənlər Azərbaycan Respublikasının ədalət mühakiməsinə cəlb edilməlidirlər. Biz Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarına müraciət edirik ki, Sərsəng su anbarında yaranmış qəza vəziyyəti ilə əlaqədar mümkün olan bütün tədbirlər həyata keçirilsin!

Ermənistan və onun himayə etdiyi qanunsuz rejimin tör-töküntülərinin Azərbaycana qarşı ekoloji terror fəaliyyəti dərhal dayandırılmalı və Sərsəng su anbarının idarəçiliyi Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarına təhvil verilməlidir".

Məzənnələrin səkkiz ayı-bu ölkələrin valyutaları ucuzlaşıb

Novator.az xarici valyutaların rəsmi məzənnələrinin 2023-cü ilin səkkiz ayında necə dəyişməsinə nəzər salıb.

Mərkəzi Bankın 1,8029 manatla start verdiyi avronun yuxarı kursu yanvarda 1,8553, fevralda 1,8735, martda 1,8534, apreldə 1,8818, mayda 1,8837, iyunda 1,8680, iyulda 1,9128, avqustda 1,8692 manat olub.

Yola 0,6296 manatla çıxan Gürcüstan larisinin qiyməti yanvarda 0,6442, fevralda 0,6481, martda 0,6654, apreldə 0,6805, mayda 0,6856, iyunda 0,6552, iyulda 0,6622, avqustda 0,6521 manatı ötməyib.

İlə 0,0236 manatla başlayan Rusiya rublunun maksimum həddi yanvarda 0,0250, fevralda 0,0244, martda 0,0227, apreldə 0,0219, mayda 0,0223, iyunda 0,0211, iyulda 0,0192, avqustda 0,0185 manat göstərilib.

0,0907 manatla siftə eləmiş Türkiyə lirəsində zirvə yanvarda 0,0908, fevralda 0,0904, martda 0,0902, apreldə 0,0886, mayda 0,0874, iyunda 0,0819, iyulda 0,0655, avqustda 0,0641 manat olub.

2015-ci ilin devalvasiyalarında ABŞ dollarının rəsmi kursu 0,7844 manatdan 1,5594 manata yüksəlib. 2016-cı ili 1,7707 manat, 2017-ci ili 1,7001 manatla yola salan dollar 2018-ci il martın 7-dən banklara 1,7 manata təklif olunur.

Manat valyuta hərraclarında qorunur. Rəsmi hesabata görə, Dövlət Neft Fondu Mərkəzi Bankın 2023-cü ilin yeddi ayında keçirdiyi valyuta hərraclarında 1 milyard 843,8 milyon ABŞ dolları məbləğində vəsait satıb. Yanvarda fonddan 188,5 milyon, fevralda 356,6 milyon, martda 383,9 milyon, apreldə 286 milyon, mayda 277,2 milyon, iyunda 78,9 milyon, iyulda 272,7 milyon dollar alınıb.

Analoji satış həcmi 2016-cı ildə 4,9 milyard, 2017-ci ildə 3,6 milyard, 2018-ci ildə 6,5 milyard, 2019-cu ildə 6,6 milyard, 2020-ci ildə 7,3 milyard, 2021-ci ildə 6,7 milyard, 2022-ci ildə 4,7 milyard dollar göstərilib.

YENİ MÜSAVAT
N 154 (8290) 1 sentyabr 2023

Azərbaycana gələn ərəb turistlərin sayı niyə azalıb?

Ekspertlər ilginc səbəblər açıqladı

Yay aylarında da Körfəz ölkələrindən Azərbaycana gələnlərin sayında azalma tendensiyası davam edib. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, bu ilin ilk 7 ayında Azərbaycana gələn turistlərin sayı əvvəlki ilin uyğun dövrü ilə müqayisədə 37.4 faiz artaraq 1 milyon 143 minə çatıb. Maraqlı məqam ondan ibarətdir ki, Azərbaycana gələn turistlərin coğrafi mənşə strukturunda əvvəlki illərlə müqayisədə dəyişiklik qeydə alınır. Yəni avropalıların sayı artıb, ərəb turistlərin səfərləri azalıb. Bu müddətdə MDB ölkələrindən gələnlərin sayı 1,7 dəfə artaraq 477,1 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 36,5 faiz artaraq 57,2 min nəfər, Körfəz ölkələrindən gələnlərin sayı 8,6 faiz azalaraq 185,4 min nəfər olub.



Qeyd edək ki, son zamanlar ölkədə ərəb turistlərin sayının azalması açıq şəkildə müşahidə olunur. Əgər bundan əvvəlki illərdə şəhər mərkəzlərində, kafe və restoranlarda hər addımbaşı ərəb turistləri ilə rastlaşırdıqsa, indi bu nisbət xeyli səngiyib.

Bəs səbəb nədir?

İqtisadçı ekspert, millət vəkili Vüqar Bayramov qeyd edib ki, ərəb turistlərin sayının azalması alternativ turist bazarlarına marağın yüksəlməsi, Azərbaycanda turizm qiymətlərinin hələ də yüksək olması ilə əlaqələndirilir: "Avropadan gələnlərin sayının artması isə pandemiyadan sonra köhnə qitənin "getmə turizm"ə istəyinin yüksəlməsi, işgüzar səfərlərin sayının çoxalması və bütövlükdə bölgəyə xüsusi marağın artması ilə bağlıdır. Eyni zamanda son illər xaricilərin Azərbaycanda sağlamlıq turizminə də marağının artması müşahidə olunur.

Turizm enerji sektorundan sonra ölkəyə ən çox valyuta gətirən sahədir. Pandemiyadan əvvəlki il - 2019-cu ildə ölkəyə 3 milyondan çox turist gəlmişdi və əcnəbilər həmin il Azərbaycanda 2.6 milyard dollara yaxın vəsait xərcləmişdilər. Bu baxımdan gələn turistlərin ölkə mənşəyinin yeniləşməsi, xüsusən də Avropa və Cənubi-Şərqi Asiyada yerləşən dövlətlərlə bu sahədə əməkdaşlığın gücləndirilməsi vacibdir. Bu, turizm gəlirlərində dayanıqlığı artıra bilər".

Turizm eksperti Ceyhun Aşırov isə "Yeni Müsavat"a açıqlamasında mövzunu bu cür şərh edib: "Mən düşünmürəm ki, Azərbaycandakı qiymətlər ərəb turistləri üçün bahalıdır. Əksinə, düşünürəm ki, digər ölkələrə nisbətən Azərbaycan daha uyğun qiymətlər təklif edir.

Doğrudur, quru sərhədlər bağlıdır, ölkəyə yalnız hava nəqliyyatı ilə gəlmək mümkündür, hava nəqliyyatı qiymətləri hələ də endirimli deyil, amma buna baxmayaraq, Azərbaycan məkanında ucuz hava daşıyıcıları var və onların sayının artırılması strategiyası götürülüb. Həftədə bir neçə dəfə ucuz hava daşıyıcıları ilə xüsusən də Şərqi Avropa, Avropa ölkələrindən uçuşlar həyata keçirilir.

Məlum olduğu kimi, dünyadakı hər iki turistdən biri Avropaya səfər edirdi. İndi də ötən illərdən fərqli olaraq artıq ölkələrdə pandemiya ilə bağlı məhdudiyyətlər aradan qaldırılıb, vizalar verilir. Buna görə də Körfəz ölkələrindən Azərbaycana səfər edən turistlər indi daha çox digər alternativ ölkələrə üz tuturlar.

Bu, normal haldır. Azərbaycan da turizm məkanı kimi hər zaman çalışmalıdır ki, ölkəyə əlçatanlığı, istirahət qiymətlərini daha uyğun hala gətirsin ki, qlobal turistlər də məhz istirahət, səyahət üçün Azərbaycanı seçsinlər.

Bunun fonunda deyə bilərik ki, ölkəyə gələn Şərqi Avropa turistlərinin sayı artıb. Statistikadan da görmək olur ki, ötən illərlə müqayisədə bu ölkələrdən Azərbaycana gələn turistlərin sayında 35 faiz artım var. Bu o deməkdir ki, baxmayaraq ərəb turistlərin sayı azalsa da, ümumi olaraq ölkəyə gələn turistlərin sayının artdığı müşahidə olunur.

Həmçinin turizmlə bağlı Uzaq Şərq ölkələri, o cümlədən Çinlə müəyyən danışıqlar aparılır, gələcəkdə Çindən böyük turist qruplarının gələcəyi gözlənilir.

Bir daha qeyd edirəm ki, ölkəyə gələn ərəb turistlərin sayının azalmasının səbəbi qiymət deyil, sadəcə, dünyada turizm bölgələrində məhdudiyyətlərin aradan qaldırılması, qapılarını turistlərin üzünə açmasıdır.

Eyni zamanda onu da müşahidə edəcəyik ki, Azərbaycandan Avropaya, Şərqi Avropaya səyahət edənlərin sayı artacaq. Ötən illərdə xarici ölkələrə gedən Azərbaycan turistlərinin sayı az idi. Belə ki, əgər pandemiyadan əvvəl 5 milyon Azərbaycan vətəndaşı xaricə səfərlər etmişdisə, 2021-ci ildə bu rəqəmin 1,5 milyon olduğunu gördük. Amma bu il daha çox, ötən ildən 2 dəfə çox Azərbaycan vətəndaşları xaricə səfər edəcək. Səfər edəcəkləri ölkələr isə Türkiyə və Gürcüstandan başqa Şərqi Avropa ölkələri olacaq".

❑ **Xalidə GƏRAY,**
"Yeni Müsavat"

Qırğızıstanda "TikTok"a qadağa qoyulur, bəs Azərbaycanda?

Ölkəmizdə də bu sosial şəbəkə ilə bağlı xeyli narazılıqlar var; **Ekspert:** ""TikTok"u qadağan etsək, insanlar ağıllanacaq?"

Qırğızıstanda "TikTok"a qadağa qoyulur. Xarici KİV-lərin məlumatına görə, Qırğızıstan Mədəniyyət, İnformasiya, İdman və Gənclik Siyasəti Nazirliyi ölkədə "TikTok"un fəaliyyətinin dayandırılması ilə bağlı qərar verdiyini açıqlayıb.

Məlumata görə, qərarın qanunvericilik çərçivəsində reallaşması üçün artıq Rəqəmsal İnkişaf Nazirliyinə müraciət göndərilib.

Nazirlikdən bildirilib ki, bir sıra qeyri-hökumət təşkilatlarından uşaqların psixi inkişafına və sağlamlığına mənfi təsir göstərən "TikTok" sosial şəbəkəsinin zərərli təsirləri ilə bağlı şikayətlər artıb.

Qeyd edək ki, ayın əvvəlində Qərbi Afrika ölkəsi Seneqalda da "TikTok"un qadağan edildiyi haqda məlumat yayılmışdı. Ölkənin Rabitə Nazirliyinin açıqladığı bəyanatda "TikTok" ölkənin sabitliyini təhdid edən nifrət dolu və dağıdıcı mesajlar yaymaq üçün bədxassəli insanların seçdiyi proqramdır", - deyə bildirilirdi.



Həmçinin Çin, ABŞ və bəzi Avropa ölkələri, Türkiyə də bu sosial şəbəkədən istifadədə müəyyən qadağalar tətbiq edib. Belə ki, Pekində orta yaşlılar gecə 22:00-dan səhər saatlarına qədər "TikTok"dan istifadə edə bilməzlər. Çünki Çin öz yaratdığı sosial şəbəkənin psixologiyaya və əmək fəaliyyətinə necə təsir etdiyindən xəbərdardır. Türkiyədə isə 12 yaşa qədər uşaqların bu sosial şəbəkəyə girişi qadağandır. 12-15 yaş arası uşaqların gün ərzində 30-40 dəqiqə istifadə etmək hüquqları var. Bir çox müsəlman ölkələri isə bu platformaya girişi qadağan edib.

Qeyd edək ki, son vaxtlar Azərbaycanda da "TikTok"la bağlı xeyli narazılıqlar, iddialar var. Bildirilir ki, "TikTok" artıq dövlətimiz üçün ciddi təhlükə mənbələrindən birinə çevrilib. Belə ki, "TikTok" müəyyən pis vərdişlərə təhrik, insan alverini əlçatan edən, dələduzluq hallarını artıran, eyni zamanda əxlaqi dəyərləri aşındıran neqativ davranışların virtual məkanı olub. Həmçinin bu platformada qadın alveri açıq formada həyata keçirilir, yüngül həyat tərzi yaşayan xanımlar bu platformada öz hesabları vasitəsilə hansı qiymətə görüşəcəklərini elan edirlər.

Xatırladaq ki, keçən ilin sonunda deputat Elşad Mirbəşir "TikTok"un Azərbaycan gəncliyinin məhvə getməsinə səbəb olduğunu bildirib, aidiyyəti qurumlara azyaşlıların "TikTok"a girişinin məhdudlaşdırılması çağırışını etmişdi. Deputat bildirib ki, "TikTok" Azərbaycan gəncliyinin məhvə getməsinə səbəb olur. Onun sözlərinə görə, məktəblər, qanunvericilik, valideynlərlə iş prinsipi səviyyəsində bu işə diqqət yetirilməlidir: "16-24 yaş arasında gənclərin "TikTok"dan istifadəsi 60%-ə bərabərdir. Bir çox ölkələrdə məhkəmə qərarları ilə "TikTok"un fəaliyyəti məhdudlaşdırılıb, dayandırılıb. Azərbaycanda da bu istiqamətdə iş görülməlidir".

Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz də bugünlərdə qeyd edib ki, "TikTok" uşaqlar üçün təhlükəlidir. "Uşaqlar və yeniyetmələr üçün "Tik-Tok" məhdudlaşdırılmalıdır. Bu istiqamətdə bütün maraqlı tərəflərin iştirakı ilə daha ağlabatan üsullardan istifadə edilməlidir. Amma ciddi hüquqi əsaslar olmadan bu platformaya qarşı bloklanma doğru olmazdı. Digər ölkələrdə olduğu kimi təhlükəsizlik məsələlərinin qorunması ilə bağlı bu platforma ilə əməkdaşlıq daha ağlabatan olardı", - deyə Osman Gündüz bildirib.

Azərbaycanda da "TikTok"a qadağa və yaxud məhdudiyyətlər qoyulsunmu?

Mövzu ilə bağlı millət vəkili Fazil Mustafa "Yeni Müsavat"a danışıb. Millət vəkili qeyd edib ki, qadağalar barəsində düşünmək doğru çıxış yolu deyil: "Çünki onun qarşısını alacaq imkanlara sahib deyilik. Axı "TikTok"u kəşf edən biz deyilik, biz yalnız onun istehlakçısıyıq. Şərq cəmiyyətləri olaraq bizim düşüncə potensialımız ancaq istehlakçı olmağa yetərlidir.

Savadsızlığın geniş yayıldığı bir məmləkətdə "Facebook"dan "TikTok"dan necə istifadə olunmalı idi ki? Yalnız təbriklər, "Allah rəhmət eləsin" və bir də mənasız məsələlər öz əksini tapır. Halbuki bunlar faydalanmaq üçün çox önəmli sistemdir. Hətta "TikTok"da bəzən ağıllı kəsintilər təqdim olunur. Digər elementlər isə onsuz da cəmiyyətin bütün sahələrində olub, olacaq da, bunu qapatmaq mümkün deyil. Yalnız dövlətin nəzarətində olan mexanizmlərdə bunu etmək mümkündür.

Bu baxımdan, bunun qarşısını almaq əvəzinə, bu axına paralel axın yaratmaq lazımdır. Bəs paralel axın nədir? Təhsili inkişaf etdirib, insanların daha ağıllı və sistemli bilik almasına yönələn fəaliyyəti genişləndiməliyik. Məhz burada axsayırıq. Bu məsələdə axsadığımıza görə də məktəbli uşaqların böyük əksəriyyəti sosial şəbəkədən bayağı, özlərini hansısa şəkildə yüngül davranış sahibi kimi göstərmək üçün istifadə edirlər. Digər cəmiyyət üzvləri də belədir. Məsələn, diqqət edirsinizə, böyük əksəriyyət sosial şəbəkəyə ancaq hansısa şəkildə linç etmək, söyüş söymək məkanı kimi baxır.

Beləliklə, biz yalnız alternativləri inkişaf etdirməyi düşünməliyik. Yəni tutaq ki, "TikTok"u qadağan etsək, insanlar ağıllanacaq? Əlbəttə ki xeyir. Ona görə də qadağa üzərində düşünmək yerinə normal islahat keçirib, təhsili cəmiyyətin dəyərinə çevirmək lazımdır".

❑ **Xalidə GƏRAY,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT

Son səhifə

N 154 (8290) 1 sentyabr 2023



Nyu-Yorkda 120 illik boru partladı: metro stansiyası su altında qaldı

ABŞ-ın Nyu-York şəhərində Tayms Skver meydanı altında 120 illik su borusu partlayıb. Nəticədə şəhərin ən işlək metro stansiyalarından birini su basıb. Bu barədə yerli hakimiyyət orqanları məlumat verib.

Məlumata görə, Manhettendə metronun "Seventh Avenue" stansiyasının ərazisində yarımmetrlik boru partlayıb. Qəza nəticəsində metroya 6,8 milyon litrdən çox su daxil olub. Qırıq borunun altından keçən xətlərdə vaqonların hərəkəti müvəqqəti dayandırılıb. Hazırda bu xətlərdə hərəkətin tam bərpa edilib-edilmədiyi barədə rəsmi məlumat yoxdur.

Şəhər nəqliyyat sisteminin sözçüsü Riçard Deyvinin sözlərinə görə, pik saatlarda bu xətt üzrə təxminən 300 min sərnişin hərəkət edir.

Ətraf Mühitin Mühafizəsi Departamentinin əməkdaşları borunun qırıldığı yeri aşkar edərək su axınının qarşısını alıblar. Bununla belə, sosial şəbəkələrdə yayımlanan videolarda su axınının havalandırma barmaqlıqları vasitəsilə Tayms Skver meydanına necə çıxdığı əks olunub.

İddia edilir ki, Nyu-Yorkda su təchizatı şəbəkələrinin uzunluğu 10 min km-dən çoxdur. Son üç ildə hakimiyyət orqanları 19-cu əsrdə çəkilmiş çuqun su borularının modernləşdirilməsinə 1,9 milyard dollar xərcləyib. Belə boruların xidmət müddəti isə orta hesabla 120 ildir.

Dünyada ən bahalı kino biletlərinin satıldığı ölkə açıqlandı

Dünyada ən bahalı kino biletləri İsveçrədə satılır. Bu ölkədə biletin orta qiyməti 22,70 dollardır. Bu barədə "World of Statistics"in dərc etdiyi hesabatdan məlum olub. Siyahıda ikinci yerdə 17,50 dollarla Danimarka, üçüncü yerdə isə 17,33 dollarla Səudiyyə Ərəbistanı qərarlaşıb. Onları Finlandiya (16,30 dollar) və Norveç (14,17 dollar) izləyir. Qeyd edək ki, Türkiyə kinoteatrda film izləmək üçün ən ucuz kino biletləri satılan ölkələr arasındadır. Belə ki, siyahının 38-ci yerində qərarlaşan qardaş ölkədə biletin orta qiyməti 3,40 dollardır.

Qadınlara kişi hormonu lazımdır, çünki...



Testosteron bizə yaxşı əhval-ruhiyyə, əzələ gücü və cinsi istək verir. Stereotiplərin əksinə olaraq, bu hormon təkcə kişilərdə kişiliyi deyil, həm də qadınlarda qadınlığı artırır. Qadının əsas hormonu estrogen kimyəvi reaksiyalar prosesində testosterondan əmələ gəlir ki, bu da qadın formalarına və uşaq doğurma qabiliyyətinə cavabdehdir. Bir paradoks ortaya çıxır: qadında kifayət qədər testosteron yoxdursa, estrogen də çatışmazlığı ola bilər. Körpə artıq bir az testosteronla doğulur: oğlanlarda qızlardan daha çox olur. Onlar böyüdükcə bu uyğunsuzluq artır və yetkinlik dövrü başlayanda əhəmiyyətli olur. 12-18 yaşlı qızlarda kişi hormonunun norması olduqca dəyişkəndir. Bu, bədənin menarşa (ilk menstrual qanaxma) və reproduktiv sistemin yetkinləşməsinə aktiv hazırlığının olması ilə bağlıdır. Eyni zamanda, hormonların yüksək səviyyəsi ovulyasiya dövrünün başlanğıcının və onun formalaşmasının düzgün tənzimlənməsini təmin edir.

Həmçinin cinsi hormonlar sümük, qığırdaq və əzələ sisteminə böyük təsir göstərir. Məhz onların təsiri ilə yetkinlik dövrünün sonuna qədər sümük toxumasının arxitektonikası yetkin insanın sümük toxumasına uyğun gəlir.


Sonra yetkinlik dövrü tədricən başa çatır, "hormonal fırtınalar" sakitləşir və normanın sərhədləri müəyyən olunur. Fakt budur ki, testosteron səviyyələri, hətta normal həddə olsa da, həyatın müxtəlif dövrlərində əhəmiyyətli dərəcədə dəyişə bilər. Məsələn, yumurtlama günlərində kişi hormonunun səviyyəsi bir qədər artacaq. Normal fizioloji hamilələk zamanı testosteronda əhəmiyyətli dalğalanmalar qeyd olunur. Buna görə də, bu göstərici dinamikada, ilkin (ilkin) səviyyə məlum olduqda müşahidə edilməlidir və onun konsentrasiyalarının artması və ya azalmasını dəqiq izləmək mümkündür.

Qadınlar üçün testosteron normaları yaşdan asılı olduğundan, hormonal vəziyyəti araşdırarkən, yaş mütləq göstərilir. Yaşla cinsi hormonların miqdarı azalır. Bu, təkcə estrogenlərə deyil, həm də androgenlərin, xüsusən də testosteronun səviyyəsinə aiddir və onun müxtəlif orqanlara təsiri zəifləyir. Orqanizmdə çoxlu androgen reseptorları olduğundan və onlar çoxlu sayda orqan və toxumalarda yerləşdiyindən, çatışmazlığın klinik təzahürləri müxtəlif olacaq: narahatlıq, əsəbilik, fiziki yorğunluq, əzələ və sümük toxumasının itirilməsi, piylənmə, zehni fəaliyyətin və yaddaşın azalması, sidik ifrazının pozulması və s.

Bunları bilirsinizmi?

* Çində ingiliscə danışanların sayı Amerikadakılardan daha çoxdur.
* Çox məcbur qalmadıqca qar yeməyin. Çünki onu əritmək üçün bədəndə olduqca çox enerji sərf edilir.
* İnsanlar oksigensiz 3 dəqiqə, susuz 3 gün və yemək yemədən 3 həftə yaşaya bilər.
* 2011-ci ildə Yaponiyada baş verən 8,9 ballıq zəlzələ nəticəsində günlərin uzunluğu 1,8 mikro saniyə azalıb.
* Qarışqalar məcbur qaldıqlarında 2 həftə ərzində suyun altında yaşaya bilirlər.
* Vakuumda (havasız və cazibə qüvvəsinin olmadığı məkanda) ağlamaq mümkün deyil. Çünki göz yaşı aşağı doğru hərəkət edə bilmir və gözdən yaş çıxmır.
* İnsanların omba sümüyü betondan daha möhkəmdir.
* Ağcaqanad əleyhinə spreylər əslində onların insanlara yaxınlaşmasını əngəlləmir. Sadəcə olaraq, ağcaqanadların hissiyatını bağlayır və bir növ insanları gizləyir.
* "Süd yolu" qalaktikasında 400 milyarddan çox ulduz olduğu düşünülür.
* Bir insan gündə ən azı 500 litr oksigen istifadə edir.
* Hər gün 275 milyona yaxın yeni ulduz yaranır.
* Gözlərin hər biri 130 milyondan çox görmə sinir hüceyrəsindən ibarətdir. Hər hüceyrənin içində isə 100 trilyon atom var. Bu rəqəmlər isə ümumilikdə dünyadakı bütün ulduzların sayından daha çoxdur.
* Hazırda dəniz aləmində 180-nə yaxın balıq növü işıq görmədən yaşayır.
* Əgər bir sözü xatırlamaqda çətinlik çəksəniz, yumruğunuzu sıxın. O zaman beyinin fəaliyyəti daha da artır və yaddaşı işə salmağa kömək edir.
* 600 kiloqramlıq bir balinanın ürək damarının içinə bir insan yerləşə bilər.
* Bir insan yaşadığı müddətdə ortalama 23 min dəfə göz qırpır, 100 min dəfə ürəyi döyünər, 23 min dəfə nəfəs alar, qaraciyərləri ilə 1500 litr qan süzülər, mədəsi ilə 2 litr asit turşusu istehsal edər.

Ən təhlükəli xərçəng növünü müalicə edən dərman tapıldı



Avstraliyanın Qarvan Tibbi Tədqiqatlar İnstitutunun alimləri xərçəngin ən təhlükəli növlərindən birinə - mədəaltı vəzin adenokarsinomasına qarşı təsirli olan dərman tapıblar. Bu xəstəliyə tutulduqdan sonra pasiyentlərin beş il sağ qalma nisbəti 10 faizi keçmir. Araşdırmanın nəticələri "Nature Cancer" jurnalında dərc olunub. Məlumata görə, yeni preparat (PXS-5505) şişlərdə lifli toxumaya (kimyaterapiyanın effektivliyini azaldan çapıqlar şəbəkəsinə) təsir göstərir.

Təcrübələr zamanı PXS-5505 kimyəvi terapiya ilə birlikdə sınaqdan keçirilib. Eksperimental heyvanlarda sağ qalma müddəti yalnız kimyaterapiyadan istifadə edən qrupla müqayisədə 35 faizdən çox olub. Qarışıq terapiya həmçinin xərçəngin digər orqanlara, məsələn, qaraciyərə yayılmasını (metastaz) 45 faiz azaldıb. Hazırda preparat sümük iliyi xərçənginin müalicəsi üçün klinik sınaqların ikinci mərhələsindədir.

Alimlər alkoqolizmin müalicəsini hazırladı

Alimlər alkoqolizmə qarşı yeni dərmanı sınaqdan keçiriblər. Bu barədə "IFL Science" nəşri məlumat yayıb. Bu dərman birbaşa beyinə yeridilir və sonra səviyyəsində alkoqoldan imtinaya səbəb olur. Meymunlar üzərində aparılan sınaqlar təsirli nəticələr verib. Dərman GDNF geninə əsaslanır. Bu insan orqanizmində xoşbgen əxtlik hormonu olan dopamin yaradır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 2221
Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.